Günəş Şərqdən doğur!

№ 72 (5353), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 24 aprel 2021-ci il (şənbə)



## Kənd təsərrüfatında işləməkdən boyun qaçırırlar

General qaraçılarla bağlı araşdırmanı açıqladı (Səh.8)

### Günün içindən...



## Azərbaycanın qəti və birmənalı mövqeyi hər kəsə bəllidir

Prezidentin köməkçisi: "Ümid etmək istərdik ki, ABŞ administrasiyası tarixi səhvə yol verməyəcək"

"Qondarma və saxta erməni soyqırımı ilə bağlı Azərbaycanın qəti və birmənalı mövqeyi hər kəsə bəllidir. Əgər ABŞ-ın yeni administrasiyası tərəfindən belə bir addım atılacaqsa, bu, tarixi səhv olacaqdır".

(səh.2)

## Qarşımızda ciddi vəzifələr durur



Ermənilərin ifşasını Türkiyə dövləti ilə koordinasiyalı şəkildə aparmalıyıq (səh.4)

# Oqtay Şirəliyev vəzifəsindən azad edilib





## Səhiyyə naziri vəzifəsinin icrası Teymur Musayevə tapşırıldı

**Oqtay Kazım oğlu Şirəliyev Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

(səh.2)

# Mirələmov qovuldu

YAP qoca üzvünə sərt üzünü göstərdi (səh.8)



## Baydenlə Ərdoğan razılığa gəlib

Liderlər NATO sammiti çərçivəsində görüşəcəklər (səh.2)

## 100 nəfər həbs edilib

Azad edilmiş ərazilərə qanunsuz keçmək istədilər (səh.9)

## Daha 1 809 nəfər koronavirusa yoluxub

33 nəfər ölüb, 191 nəfər müalicə olunaraq sağalıb (səh.9)

## Pandemiya kasıbçılıq yaradıb

Əhali depozitlərdən "yeməyə" başlayıb (səh.12)

## Orta məktəblərdə din tədris olunmalıdır



Bu, dini simvolların təhsil ocağına daşınması, dindarlar ordusu yetişdirmək demək deyil (səh.9)

## Paşinyanın əlində hələ bir "kozır" var

O, seçkilərdə qalib gəlsə Koçaryan və Sarkisyanı Azərbaycana təhvil verməklə hədələyəcək (səh.6)



# Azərbaycanın qəti və birmənalı mövqeyi hər kəsə bəllidir

## Prezidentin köməkçisi: "Ümid etmək istərdik ki, ABŞ administrasiyası tarixi səhvə yol verməyəcək"



**"Qondarma və saxta erməni soyqırımı ilə bağlı Azərbaycanın qəti və birmənalı mövqeyi hər kəsə bəllidir. Əgər ABŞ-ın yeni administrasiyası tərəfindən belə bir addım atılacaqsa, bu, tarixi səhv olacaqdır".**

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

"Azərbaycan həmişə qondarma erməni soyqırımının tanıdılması cəhdlərinin əleyhinə olub. Qondarma erməni soyqırımının tanınması tarixi saxtalaşdırmaqdır. Tarix tarixçilər tərəfindən araşdırılmalıdır. Bu halın baş verəcəyi təqdirdə, Azərbaycan qəti şəkildə onu qınayacaqdır.

Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, Türkiyəyə qarşı olan addım Azərbaycana qarşıdır və Azərbaycana qarşı olan hər hansı addım da Türkiyəyə qarşıdır. Ümid etmək istərdik ki, ABŞ administrasiyası tarixi səhvə yol verməyəcək", - o vurğulayıb.

## 25 subartezian quyusunun qazılması üçün 1,75 milyon manat ayrılıb

**Prezident İlham Əliyev bir sıra rayonlarda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, əhalisi 29662 nəfər olan 5 rayonun 16 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 25 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,75 milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

*Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.*

## Baydenlə Ərdoğan razılığa gəlib

### Liderlər NATO sammiti çərçivəsində görüşəcəklər



**ABŞ Prezidenti Co Bayden türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla ikitərəfli münasibətləri müzakirə edib və iyunda NATO sammiti çərçivəsində görüşmək barədə razılığa gəlib.**

Sputnik Azərbaycan bildirir iki, bu barədə Ağ Ev məlumat yayıb.

"Bayden əməkdaşlıq sahələrinin genişləndirilməsi və fikir ayrılıqlarının effektiv şəkildə aradan qaldırılmasında maraqlı olduğunu bildirib. Liderlər ikitərəfli və regional məsələləri tam spektrdə müzakirə etmək üçün iyunda NATO sammiti çərçivəsində ikitərəfli görüş keçirmək barədə razılığa gəldilər", - məlumatda deyilir.

Söhbət ermənilərin yalançı soyqırım məsələsinin guya Bayden tərəfindən tanınması haqda şayiələrin fonunda baş tutsa da, Ağ Ev liderlərin söhbətində belə bir məsələnin müzakirə olunubolunmadığı barədə məlumat verməyib.

## Din xadimləri 5 ildən bir attestasiyadan keçiriləcək

**Milli Məclisin dünən keçirilən plenar iclasında "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.**

Dəyişikliklə İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri hər 5 ildən bir attestasiya ediləcək.

Layihəyə əsasən, İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir və hər 5 ildən bir attestasiya ediləcək.

Attestasiya müvafiq icra hakimiyyəti orqanının (qurumun) nümayəndəsinin iştirakı ilə keçirilir.

*Müzakirələrdən sonra qanuna dəyişiklik layihəsi I oxunuşda səsverməyə çıxarılaraq qəbul edilib.*

# Oqtay Şirəliyev vəzifəsindən azad edilib





## Səhiyyə naziri vəzifəsinin icrası Teymur Musayevə tapşırıldı

**Oqtay Kazım oğlu Şirəliyev Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

*Qeyd edək ki, O.Şirəliyev 1950-ci il avqustun 2-də Bakı şəhərində həkim ailəsində anadan olub. O, 2005-ci ilin oktyabr ayından Azərbaycanın səhiyyə naziri idi.*

**Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini təyin edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin imzaladığı digər sərəncamla Azərbaycan Respublikası səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti səhiyyə nazirinin birinci müavini Teymur Yusif oğlu Musayevə verilib.

*Səhiyyə nazirini əvəz edən Teymur Musayev kimdir?*

Dünən Prezident İlham Əliyevin imzaladığı sərəncamla Teymur Yusif oğlu Musayev Azərbaycanın səhiyyə nazirinin birinci müavini təyin edilib və dövlət başçısının digər sərəncamı ilə səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti də ona tapşırılıb.

*"Report" xəbər verir ki, T.Musayev 1987-94-cü illərdə ATU-da tibb təhsili alıb.*

*O, 2003-2004-cü illərdə Strasburq Universitetində Laparoskopik cərrahiyyə ixtisası üzrə biliyini artırıb. 2013-15-ci illərdə isə RISEBA və Riga Stradins Universitetində təhsilini magistr səviyyəsində davam etdirib.*

*T.Musayev bu təyinatadək Səhiyyə Nazirliyində Səhiyyənin təşkili şöbəsinin müdiri vəzifəsində çalışırdı.*

*Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində çıxış edib.*



## Prezident dövlət universitetinə rektor təyin etdi

**Lənkəran Dövlət Universitetinə (LDU) rektor təyin edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncamla bu vəzifəyə Natiq Səhrab oğlu İbrahimov təyinat alıb.

*Qeyd edək ki, riyaziyyat üzrə elmlər doktoru, professor N.İbrahimov bu təyinatadək LDU-nun rektor əvəzi vəzifəsində çalışıb.*

## “Şərq TV"nin əli yüngül imiş"

### Səhiyyə naziri işdən qovuldu




**“Şərq TV-nin əli yüngül imiş”.** Bu sözləri tanınmış iqtisadçı-alim Nazim Baydəmirli sosial şəbəkə profolində yazıb.

İqtisadçı yazıb ki, dövlət səhiyyə sistemini kökündən tənqid etməyə şərait yaratdı:

”Zəlzələdən-vəlvələdən səhiyyə nazirini işdən azad etdilər. Bu gün ”Şərq TV”də səhiyyə sistemindəki rüşvətin, korrupsiya sxemlərinin anatomiyasını açmışdım. Verilişi izləməyənlər baxsınlar”.

*Qeyd edək ki, iqtisadçı Nazim Baydəmirli dünən ”Şərq TV”nin qonağı olub. Proqramda ”ağ xalatlıların” həbsindən danışan iqtisadçı-ekspert səhiyyə sisteminin düzgün idarə olunmamasından, tibb sahəsindəki korrupsiyanın səbəblərindən ətraflı danışıb.*

İsmayıl

## "YAŞAT" daha 3 qazinin əməliyyat xərclərini qarşılayıb

**”YAŞAT” Fondunun və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə dəstəyi ilə qazilər Zamir İsmayılov, İsmayıl Süleymanov və Rəhman Nuriyevin əməliyyat xərcləri qarşılanıb.**

Bu barədə “Şərq”ə ”YAŞAT” Fondundan bildirilib.

Xatırladaq ki, ”YAŞAT” Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 ”Çağrı” Mərkəzi fəaliyyət göstərir.

# Mübarizə çətinləşir

## Millət vəkilləri dünyanı bürüyən ən böyük cinayətdən danışdılar

Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclas zamanı gündəliyə daxil edilən 18 məsələnin müzakirəsi aparılıb. Həmçinin, cari mövzularla bağlı təklif və şikayətlər səsləndirilib.

**“Vətəndaş vergi ödəyirsə, pullu müalicə almalı deyil”**

**Millət vəkili Fazil Mustafa deyib ki, icbari tibbi sığorta ilə bağlı layihə artıq pilot layihə olmaqdan çıxıb.** Aprelin 1-dən bütün respublika üzrə tətbiq edilir. Deputat bildirib ki, bununla bağlı əhali arasında çox böyük çaşqınlıq yaranıb: ”Yüz minlərlə vətəndaşın təyinat olaraq harada müalicə olunacağı açıq qalır. Bizdə hazırlıq yetərli səviyyədə deyilsə, bunu formal olaraq niyə tətbiq edirik? Onda bunu uzadardıq, 2022-ci ildə tətbiq edərdik. Bizim maaşımızdan yanvar ayından icbari tibbi sığortaya vəsait çıxılır. Amma hələ bunun tətbiqində çatışmazlıqlar var. Bu qərar qəbul olunubsa, hələ tam hazır olmaması ilə bağlı bəhanə ola bilməz. Əgər vergi ödənilirsə, vətəndaş pullu müalicə almalı deyil”.

**“İnsan alveri qurbanlarını sığınacaqlara yerləşdirməklə problem həll olunmur”**

**Fazil Mustafa qeyd edib ki, biz narkomaniya ilə bağlı mübarizədə istədiyimiz nəticəni ala bilmirik. Çünki onların müalicəsi ilə bağlı infrastruktur istədiyimiz səviyyədə deyil:** ”Əksər hallarda məhkəmələr bu insanların həbsə getməsinə qərar verir və onlar orada daha çox insanı buna yoluxdurur. Ümumiyyətlə, istər insan alveri, istər narkomaniya, məcburi əmək, dilənçilik kimi problemlərdə sosial reabilitasiya gücləndirilməlidir. Sığınacaqlara biz insan alveri qurbanlarını 2-3 ay yerləşdirməklə problemi həll etmiş olmuruq. Bu insanlar yenidən normal həyata qayıtmaqda çətinlik çəkirlər. Çox vaxt da yenidən həmin işə qayıdırlar. Bu, xüsusilə Azərbaycan cəmiyyətində belədir. Biz yeni fikirlər üzərində düşünməliyik. Bu insanların işə götürülməsi təşviq edilməlidir. Yataqxanalar tikilməlidir. Təhsil sistemindən başlayaraq, maarifləndirmə işini gücləndirməyə ehtiyac var. Bu istiqamətdə deputatların da təkliflərini dəyərləndirmək lazımdır”.

**“Şəhid adının əbədiləşdirilməsi ilə bağlı tələblərə yenidən baxılmalıdır”**

**Deputat Əli Məsimli bildirib ki, qanunvericilikdə şəhid adının əbədiləşdirilməsi ilə bağlı tələblərə yenidən baxılmalıdır:** ”Şəhid ailələrini ən çox narahat edən məsələ övladının adının əbədiləşdirilməsi ilə bağlıdır. Elə kənd var ki, onun sadəcə bir şəhidi var. Ancaq həmin şəhidin adı nə məktəbə, nə də küçələrə verilə bilir. Çünki qanunvericilikdə qoyulan tələblərlə bunu etmək olmur”. Deputat insan alveri ilə bağlı qanunvericilik bazasının genişləndirilməsini təklif edib.



“Televiziyalarda, saytlarda, sosial şəbəkələrdə insan alveri ilə bağlı sanki təbliğat gedir”

**“Regionlardan insanlar aldadılıb gətirilir”**

**Deputat Siyavuş Novruzov vurğulayıb ki, insan alveri daxili yox, qlobal məsələdir.** Dünyanı narahat edən məsələlərdən biridir: ”Azərbaycanın qonşuluğunda olan dövlətlərin əksəriyyətində bu cür problemlər var. Ona görə də bununla mübarizə çətinləşib. Bu gün özünü demokratik adlandıran ölkələrdə xeyli sayda insan alverinin qurbanına çevrilən şəxslər var. Daxildə də insan alveri qurbanları var. Regionlardan insanlar aldadılıb gətirilir. Onların çoxu məcburi əməyə cəlb edilir. Bəzən həmin insanların sənədləri alınır və işlədilir. Digər tərəfdən, Azərbaycandan Suriyaya gedənlərin də çoxu sonradan insan alverinin qurbanına çevrilib. Onlar da Azərbaycan vətəndaşıdır. Onların da hüquqlarını müdafiə etməliyik və ölkəyə qayıtmasını təmin etməliyik. Televiziyalarda, saytlarda, sosial şəbəkələrdə insan alveri ilə bağlı sanki təbliğat, həvəsləndirmə gedir. İstər sosial şəbəkələrdə, istər ayrı-ayrı sayt, televiziya kanallarında dövlət vəsaiti hesabına çəkilən serialların böyük əksəriyyəti insanları insan alverinə həvəsləndirir. Bununla biz ictimaiyyəti çaşdırırıq. Dövlət televiziyasında bu məsələ ilə bağlı təbliğat-maarifləndirmə xarakterli verilişlərə yer verməliyik”.

**“İnsan alveri ilə məşğul olanlar sosial şəbəkələrin imkanlarından istifadə edirlər”**

**Millət vəkili Elman Nəsirov bildirib ki, insan alveri böyük və genişmiqyaslı təhlükədir:** ”Dünyada ən çox gəlir gətirən sahələrdən biri də bu təhlükəli cinayətdir. Bunu yalnız silah satışı ilə müqayisə etmək olar. İnsan alverindən gələn gəlir dünyada 150 milyard dolları ötüb. Burada 1-ci yeri cinsi istismar tutur. Yalnız 6 faizi dilənçilik, məcburi nikahdı”. Deputat qeyd edib ki, bu gün insan alveri ilə məşğul olan subyektlər sosial şəbəkələrin imkanlarından geninə-boluna istifadə edirlər: ”Sosial şəbəkədə bu təhlükəli cinayət növü ilə mübarizəyə xüsusi diqqət yetirilməlidir”.

**“Polislərin əməkhaqları 2 dəfə atrırılmalıdır...”**

**Deputat Qüdrət Həsənquliyev polislərin maaşlarının 2 dəfə artırılmasını təklif edib:** ”Polis və təhlükəsizlik əməkdaşlarının demoralizasiya olunmasını müşahidə edirik. Cinayətkarlığın artım səviyyəsi ilə yoxsulluq arasında birbaşa əlaqə var. Amma yeganə səbəb bu deyil. Dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan ABŞ-da cinayətkarlığın səviyyəsi, ağır cinayətlərin sayı digər ölkələrdən çoxdur. İnsanlar sırf işsizlikdən cinayət törətmirlər. İnsanlar boşluqlardan faydalanmaq, daha tez varlanmaq istəyirlər”. Deputat qeyd edib ki, bu yaxınlarda prokurorluq orqanları əməkdaşlarının əmək haqlarının artırılması ilə bağlı qanunvericiliyə dəyişiklik edilib: ”Polis orqanları əməkdaşlarının da əmək haqları artırılmalıdır. Ən azı iki dəfə artırılmasına ehtiyac var. Qarşıda büdcənin hazırlanması işləri gəlir. Aidiyyəti dövlət orqanları yəqin ki, bu məsələni nəzərə alar. Çünki polis orqanları ölkədə ən az maaş alan qurumlardan biridir. Xoşagəlməz halların da bir çoxu maaş azlığından yaranır”.

**“Alimentlərlə bağlı problemlər də bu gün aktualdır”**

**Deputat Musa Quliyev isə insan alveri ilə bağlı qanunvericilik bazasının genişləndirilməsini təklif edib:** ”İnsan alveri ilə bağlı qanunvericilik bazasının genişləndirilməsi üzərində işləməliyik. Bu qanunun qəbulundan xeyli vaxt keçib. Milli Koordinatorun səlahiyyətlərini artırmalıyıq. Məncə, qurum Nazirlər Kabinetinin yanında fəaliyyət göstərsə, daha faydalı olar. Milli Koordinatorun yanındakı İşçi Qrupunda 14 dövlət qurumu və çoxlu sayda QHT iştirak edir. Onların fəaliyyətini isə biz sadəcə bu hesabat dinləniləndə görürük. Eyni zamanda Milli Koordinatorun Ombudsmanla əlaqələri genişləndirilməlidir. Analiz aparsaq, struktur baxımından insan alverinə məruz qalan qadınların böyük əksəriyyəti peşəsi olmayan, ailəsi uğursuz olan, təhsilsiz qadınlardır. Digər tərəfdən alimentlərlə bağlı problemlər də bu gün aktualdır. Boşanmış qadınların çoxu təyin olunan alimenti ala bilmir. Bunları da düşünməliyik. Qadınların məşğulluğu ön planda olmalıdır”.

**“Kütləvi dini ayinlər yalnız ibadət yerlərində keçiriləcək”**

**Vitse-spiker Fəzail İbrahimli deyib ki, dini sahədə normativ hüquqi aktların zəruriliyi ”Dini etiqad azadlığı haqqında” qanuna dəyişikliyi labüd edib.** Çünki bu qanun 90-cı illərdə qəbul edilib. O bildirib ki, bu sahədə dövlətin, aidiyyəti qurumların hüquq və vəzifələri dəqiq şəkildə müəyyənləşəcək: ”Əsrlər boyu Azərbaycanda dini tolerantlıq mühiti mövcud olub. Bu qanunla bu mühit daha da yaxşılaşacaq. Azərbaycanda elə insan var ki, dini dəyərlərimizin qorunmasının əleyhinə çıxsın? Bu qanunda kifayət qədər dəyişikliklər var. Biz bu məsələni iki komitədə müzakirə etmişik. Ciddi və ətraflı müzakirə təşkil edilib. Dini qurumların da nümayəndələri bu müzakirədə iştirak ediblər. Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri bu gün də iclasda iştirak edir”. Onun sözlərinə görə, ayrı-ayrı dini cərəyanlar uşaqları öz tərəfinə çəkir, başlarına oyun açır: ”Bu qanunun qəbul olunması ilə bu kimi halların qarşısı alınacaq. Kütləvi dini ayin, ibadətlər yalnız məscidlərdə və ibadət yerlərində keçiriləcək. Digər yerlərdə isə yalnız icazə ilə bunu edə biləcəklər. Xarici ölkələrdə yerləşən din üçün müqəddəs hesab edilən yerlərdə dindarların iştirakı yalnız müvafiq icra hakimiyyəti qurumu tərəfindən təşkil ediləcək. Qanuna təklif edilən dəyişikliklə istənilən hərbçi xidmət keçdiyi hərbi hissənin rəhbərliyinə yaxınlaşaraq istəyini ifadə edə bilər - qaravul, qarnizon, döyüş xidməti istisna olmaqla. Yəni döyüş gedən bölgədə sən başını atıb namaz qıla bilməzsən”.

İsmayıl Qocayev

# Qarşımızda ciddi vəzifələr durur

## Ermənilərin ifşasını Türkiyə dövləti ilə koordinasiyalı şəkildə aparmalıyıq

“Ümid etmək istərdik ki, ABŞ Administrasiyası tarixi səhvə yol verməyəcək". Bunu Prezidentin köməkçisi Hikmət Hacıyev erməni lobbisinin saxta 24 aprel erməni "soyqırımı" ilə bağlı başlatdığı kampaniyaya münasibət bildirərkən deyib. H.Hacıyev bildirib ki, qondarma erməni soyqırımı ilə bağlı Azərbaycanın qəti və birmənalı mövqeyi hər kəsə bəllidir. Onun sözlərinə görə, əgər Amerikanın yeni Administrasiyası tərəfindən belə bir addım atılacaqsa, bu, tarixi səhv olacaq:





”Azərbaycan həmişə qondarma erməni soyqırımının tanıdılması cəhdlərinin əleyhinə olub. Qondarma erməni soyqırımının tanınması tarixi saxtalaşdırmaqdır. Tarix tarixçilər tərəfindən araşdırılmalıdır. Bu halın baş verəcəyi təqdirdə, Azərbaycan qəti şəkildə onu qınayacaq. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Türkiyəyə qarşı olan addım Azərbaycana qarşıdır və Azərbaycana qarşı olan hər hansı addım da Türkiyəyə qarşıdır”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Məşvərət Şurasının toplantısında bu məsələdən danışıb. İclasda qondarma erməni soyqırımının növbəti ildönümü yaxınlaşdıqca, bu məsələ ətrafında cərəyan edən proseslər də müzakirə olunub. Dövlət başçısı vurğulayıb ki, qondarma erməni soyqırımı iddiası qarşısında həqiqətləri müdafiə edəcəyik: ”Qondarma erməni soyqırımı yalanına və siyasi hesablaşmalarda bu iftiranı dəstəkləyənlərə qarşı həqiqətləri müdafiə etməkdə davam etdirəcəyik”.

**Qondarma “soyqırımı” ilə bağlı “Şərq”ə danışan tarixçi-alim Boran Əzizli bildirib ki, erməni ”soyqırımı” uydurması Avropa və Rusiyanın Şərq siyasətinin tərkib hissəsidir.** Alimin sözlərinə görə, 100 il öncə Avropa dövlətləri və Rusiya Osmanlı ərazisində yaşayan erməniləri silahlandıraraq bu dövlətə qarşı üsyana qaldırıblar: ”Silahlanmış ermənilər Osmanlı ərazisində günahsız on minlərlə insanın qətliamını həyata keçirmişdilər. Ermənilərə dəstək verənlər bu yolla Osmanlını parçalamaq, türk ölkəsinin ərazisini öz aralarında bölüşdürmək istəyirdilər. Amma Osmanlı dövləti Qərbin və Rusiyanın bu çirkin oyunlarını boşa çıxardaraq ermənilərin daha təhlükəsiz əraziyə köçünü təmin etdi. Həmin dövrdən etibarən türk xalqlarını nəzarət altında saxlamaq, özlərinə tabe etdirmək məqsədi ilə ”erməni məsələsi”ndən siyasi məqsəd kimi daim istifadə edilib. Əslində Amerika tarixçiləri ABŞ prezidentlərinə ”soyqırım” iddiaları ilə bağlı dəqiq arayışlar təqdim ediblər və göstəriblər ki, reallıqda heç bir qətliam baş verməyib. Lakin hələ də bu oyun davam edir. İndi də Türkiyə müstəqil siyasət yeritdiyi, Qərbin təlimatlarına boyun əymədiyi üçün Ankaraya qarşı erməni kartından istifadə olunur. Xüsusən, Azərbaycanın Türkiyədən siyasi və mənəvi dəstək alaraq 44 gün ərzində erməni işğalına son qoyması, möhtəşəm zəfər qazanması düşmən lobbisini qisasçı hərəkətə sövq edib. Çünki 44 günlük müharibə Minsk Qrupu daxil olmaqla bir çox dairələrin türk dünyasına qarşı planlarını alt-üst etdi. O səbəbdən Qərb ölkələri Türkiyənin artan nüfuzunun qarşısını almaq məqsədi ilə yenidən ”soyqırımı” məsələsini ortaya atıblar. Maraqlıdır ki, yüz il öncə olmamış hadisənin təəssübünü çəkən Qərb ölkələri müasir dövrdə baş vermiş Xocalı soyqırımı, Qaradağlıda, Meşəlidə törədilən qətliamları görməzdən gəlirlər. İşğaldan azad edilmiş ərazilərdə erməni vəhşiləri tərəfindən həyata keçirilən vandalizmə göz yumurlar. Bir qram obyektivlikləri var idisə, bu məsələlərə diqqət yönəldərdilər”.

**B.Əzizli vurğulayıb ki, Azərbaycan və Türkiyə tarixçiləri ermənilərin türklərə qarşı həyata keçirdiyi soyqırımlarla bağlı xeyli əsərlər yazıblar:** ”Ermənilərin ifşasını, həqiqi soyqırımların təbliğatını koordinasiyalı şəkildə aparmaq lazımdır. Birgə təbliğatımız il boyu davam etməlidir. İngiltərə, ABŞ, Rusiya və Fransanın Birinci Dünya müharibəsi ərəfəsində və ondan sonrakı dönəmdə yeritdikləri siyasəti əks etdirən tarixi arxiv sənədlərini aşkarlayıb üzə çıxartmalıyıq. Xüsusən, Müdafiə Nazirliyi və kəşfiyyat orqanlarının arxivlərində bu məsələ ilə bağlı sənədlər əldə olunmalıdır. Qarşımızda ciddi vəzifələr durur və bu iş sadəcə, Azərbaycan və Türkiyənin deyil, bütövlükdə türk dünyasını təmsil edən ölkələrin ümumi vəzifəsidir. Son illərdə türkdilli dövlətlərin yaxınlaşması müşahidə olunur. Türk respublikaları ilə əlaqələri daha da genişləndirməli və qardaş Türkiyəni bu məsələdə tək qoymamalıyıq. Çünki ermənilər sadəcə, Azərbaycan və Türkiyənin deyil, bütün türklərin, türk dünyasının düşmənidir”.

**İsmayıl Qocayev**

# ABŞ Türkiyə maraqlarından vaz keçməyəcək

## Böyük ehtimalla Bayden “soyqırım” ifadəsini işlətməyəjək

ABŞ Prezidenti Jo Bayden hələ seçki təbliğatı zamanı bəyan etmişdi ki, Prezident seçiləjəyi təqdirdə 1915-ji ildə Anadoluda baş vermiş hadisələrin "soyqırım" kimi tanınması haqqında qətnaməni dəstəkləyəjək. ABŞ-da seçkiqabağı bu jür vədlər vermək ənənəvi hal alıb. Lakin bəzi ekspertlər düşünürlər ki, bu gün, yəni aprelin 24-ü Bayden "erməni soyqırımı" ifadəsini səsləndirməyəjək.



*“Bu gün Amerika-Türkiyə münasibətləri özünün çox həssas dönəmini yaşamaqdadır”*



Amerikalı konqresmenlər vasitəsilə Baydenə təzyiqlər artıb və ondan ”erməni soyqırımı” ifadəsini işlətməyi tələb edirlər. Türkiyə mediası Baydenin ”erməni soyqırımı” ifadəsi işlədə biləjəyini vurğulasa da, bunun Ankara üçün böyük fəlakət anlamına gəlmədiyini yazır. Baydenin bu ifadəni işlətməsi ilə jiddi bir şeyin dəyişməyəjəyi aydındır. Lakin ABŞ siyasi dairələrində formalaşan fikrə görə, Bayden bu addımı ilə Türkiyə və Azərbayjanla münasibətlərə xələl gətirmiş olajaq.

**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Orujlu mövzu ətrafında fikirlərini “Şərq”lə bölüşüb.**

Analitik bildirib ki, Baydenin qondarma ”erməni soyqırımı”nı tanıyajağı və yaxud ”soyqırım” sözünü işlədəjəyi sualı aktuallaşıb:

”Bu ”soyqırım”ın tanınması erməni lobbisi üçün nə deməkdir? Ermənilər bundan ümumi platforma düzəldiblər və öz ijmalarını daim səfərbər etmək, onu təşkilatlanmış şəkildə saxlamaq üçün mövzunu həmişə istismar edirlər. O jümlədən Amerika Erməniləri Milli Komitəsi illər boyu müntəzəm olaraq çalışır ki, ABŞ prezidentləri tərəfindən ”soyqırım” ifadəsi işlədilsin və tanınsın. Məsələ burasındadır ki, Amerika prezidentliyinə namizəd olan bir çox şəxs seçkilər prosesində ”soyqırımı” tanıyajaqlarını deyiblər. Lakin son nətijədə heç biri tanımayıb və ”soyqırım” ifadəsini işlətməyiblər. Səbəb isə çox sadədir. Amerika prezidentliyinə namizədlər bir tərəfdən erməni ijmasının dəstəyini qazanmaq üçün bu vədi verirlər, digər tərəfdən isə ABŞ-ın siyasi-strateci və digər maraqları imkan verməyib ki, bu ifadəni işlədərək Türkiyə ilə münasibtələri korlasınlar.

Bu gün Amerika-Türkiyə münasibətləri özünün çox həssas dönəmini yaşamaqdadır. Türkiyə müstəqil xariji siyasətini yürüdür, lakin bu siyasət bütün hallarda ABŞ-ın maraqları ilə üst-üstə düşmür”.

Ə.Orujlu vurğulayıb ki, Bayden Administrasiyası, Baydenin özü və Konqresdəki müəyyən demokrat toplum ermənilərə daha rəğbətlə yanaşırlar: ”Ümumiyyətlə, demokratlarda belə bir tendensiya var. Lakin erməni lobbisinin güjü o qədərdir ki, onlar məsələyə təsir göstərirlər. Fikrimjə, bu, yanlışdır. Baydenin ”soyqırım” ifadəsini səsləndirməsi daha çox ABŞ-ın maraqlarından asılıdır. Bu baxımdan ermənilərə rəğbətlə yanaşan Baydenin ”soyqırım” sözünü deməsi istisna edilmir. Digər tərəfdən isə Bayden hazırda özünün çox həssas və gərgin dönəmini yaşayan ABŞ-Türkiyə münasibətlərinə bunun təsirini nəzərə alaraq, belə ifadəni səsləndirməyə də bilər. Ona görə də məsələyə birmənalı fikir söyləmək çox çətindir”.

Politoloqun sözlərinə görə, konkret olaraq bunu demək olar ki, Bayden ”soyqırım” ifadəsini işlətsə də, bu, heç nəyi dəyişməyəjək: ”Sadəjə, ABŞ-Türkiyə münasibətləri bir qədər də soyuyub, gərginləşəjək. Düşünürəm ki, məsələni dramatikləşdirməyə ehtiyaj yoxdur. Dünyanın bir çox ölkələri qondarma ”erməni soyqırımı”nı tanıyıb, amma bu tanıma heç bir məqama təsir göstərməyib. Nə Türkiyə ilə münasibətlərə, nə Ermənistanın hansısa uğuruna. Bayden belə ifadə işlətsə, fajiə baş verməyəjək və Ermənistana hansısa dividendlər gətirməyəjək”.

**Yeganə Bayramova**

# İrəvan biləkdən bəyanatın şərtlərini pozur



## Əziz Əlibəyli: "Minalarla bağlı xəritənin verilməməsi məskunlaşmanın qarşısını almaqdan ötrüdür"

Məlum olduğu kimi, 10 noyabr razılaşması imzalanan ilk gündən etibarən Ermənistan sənəddəki tələblərə əməl etmir. Əksinə, elə bil, baş nazir Nikol Paşinyan heç həmin razılaşmaya qol çəkməyib. Görünür, onlar üçün imza, vəd məsələsi bu qədər əhəmiyyətsizdir. Nə olar, rəsmi İrəvanı bir daha tanımış olduq...

*Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə açıqlamasında düşmənin əməl etmədiyi öhdəlikləri sadaladı:* "Ermənistan beynəlxalq öhdəliklərini açıq şəkildə pozaraq minalanmış ərazilərin xəritəsi barədə məlumatı təqdim etməkdən imtina edir. Yerinə yetirilməmiş digər şərtlər: 10 noyabr razılaşmasının 4-cü bəndi - Rusiya Federasiyasının sülhməramlı kontingenti Ermənistan silahlı qüvvələrinin geri çəkilməsinə paralel olaraq yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir, tərəflərdən heç biri müddətin bitməsinə altı ay qalmış bu müddəanın tətbiqinə xitam vermə niyyətini ifadə etmədiyi halda qalma müddəti avtomatik beş illik müddətə artırılır. 8 -ci bənd - məcburi köçkünlər və qaçqınlar Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı İdarəsinin nəzarəti altında Qarabağ ərazisinə və ona bitişik ərazilərə qayıdırlar. 10-cu bənd - bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın Qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrini təmin edir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir. Dediyim kimi, təəssüf ki, bu tələblər yerinə yetirilmir".

**Ə.Əlibəyli rəsmi İrəvanın niyə həmin şərtlərə əməl etmədiyini söylədi:** "Minalarla bağlı xəritənin verilməməsi məskunlaşmanın qarşısını almaqdan ötrüdür. Belə ki, ermənilər azərbaycanlı mülki əhalinin öz ata-baba torpaqlarında gec məskunlaşmasını, mülki və hərbi kontingentin daha çox zərər görməsini istəyir. 4-cü bəndin icra edilməməsində əsas məqsəd Azərbaycanı preventiv davranmağa məcbur etməklə səhvinə nail olmaq, Qarabağda möhkəmlənmək, minimum de-fakto, maksimum isə müstəqil respublika yaratmaqdır.

Ən pis halda Rusiyaya birləşməyi və Azərbaycanın ehtimal edilən hücumlarının qarşısını almağı düşünürlər. 8-ci bənd ona görə reallaşmır ki, Qarabağ ərazisinin 25 faizində sırf ermənilərin yaşadığı göstərilsin, gələcəkdə xalqların birgəyaşayışı, barış mühiti əngəllənsin. 10-cu bəndə görə isə kommunikasiya məsələsi faktiki Ermənistanda 20 iyun seçkiləri öncəsi iqtidar uğrunda qarşıdurma üçün vasitəyə çevrilib. Yəqin ki, seçkilərdən sonra aqibəti bəlli olacaq".

*Ekspert, həmçinin rəsmi İrəvanın "şıltaqlığı" nəticəsində başına gələcəklər barədə də danışdı:* "Prezidentin də dediyi kimi, Azərbaycan xalqı 101 il əvvəl əlimizdən alınmış Zəngəzura qayıdacaq. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq. Yəni yenə "Dəmir yumruq" və nəticədə növbəti Hərbi Qənimətlər Parkı".

**Kənan Novruzov**





# Mətbuat Şurasının sədri "Şərq TV"nin studiyasında olub

**Mətbuat Şurasının sədri, Milli Məclisin keçmiş deputatı Əflatun Amaşov "Şərq" qəzetinin nəzdində yaradılan "Şərq TV"nin studiyasında olub.**

Ə. Amaşov gənc işçi heyəti və yaradılan şəraitlə tanış olub. Qəzetin baş redaktoru Akif Aşırlı, Əflatun Amaşova üzərində "Şərq TV"nin loqosu olan istəkan hədiyyə edib.

Medianın inkişafında yeni mərhələnin başladığını vurğulayan sədr bildirib ki, hansı televiziya daha çox tamaşaçı qazanacaqsa, o yaşayacaq:

"TV-nin götürdüyü xəttdən çox şey asılıdır. Mən əminəm ki, "Şərq" üzərinə düşən missiyanı layiqincə yerinə yetirəcək. "Şərq TV" yaxın gələcəkdə nəinki Azəbaycanda, ümumiyyətlə, regionda sayılıb-seçilən televiziyalardan biri olacaq".

*Sonda Akif Aşırlı, Əflatun Amaşov və gənc əməkdaşlar xatirə fotosu çəkdirib.*

# 2 ordeni olmayan şəhidin adını küçəyə vermək olmur

## Deputat deyib ki, şəhid adlarının əbədiləşdirilməsi üçün qanuna dəyişiklik edilməlidir



**"Şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı mövcud qanunvericiliyə, təlimatlara, qərarlara dəyişiklik edilməlidir".**

*Bunu millət vəkili Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, şəhid ailələri və qazilərlə iş dövlət siyasətinin prioritetlərindəndir:* "Vətən müharibəsinin yaratdığı yeni reallıq fonunda şəhid adının əbədiləşdirilməsi istiqamətində mövcud hüquqi bazanın təkmilləşdirilməsinə baxmalıyıq. 1993-cü ildə qəbul edilmiş qanuna əsasən, şəhid adı küçə, meydan, müəssisə, məktəb və s. verilə bilər. Nazirlər Kabinetinin 1994-cü il qərarında isə qeyd edilir ki, bu cür əbədiləşdirmə üçün şəhid ya Milli Qəhrəman olmalıdır, ya da vətən uğrunda döyüşlərə görə azı 2 ordenlə təltif olunmalıdır. Təmsil etdiyim Biləsuvarda orta hesabla hər kənddə 3-4 şəhid var. Lakin mövcud qaydalara görə, 2 ordeni olmayan şəhidin adını vaxtı ilə yaşadığı küçəyə, oxuduğu məktəbə vermək olmur. Bu da haqlı gileylərə səbəb olur. Halbuki, şəhidin adını adsız küçələrdən birinə verməklə şəhid ailəsinin də könlü xoş olar, gənc nəsil üçün bir dərs olar, şəhidin adını yaşadar. Ona görə bu məsələyə yenidən qayıdılmalıdır".

**İsmayıl**

# Siyasi hakimiyyətin göstərişidir

## AŞ PA-dakı qətnamənin qəbulunda xarici faktorların təsiri də hiss olunur

Avropa Şurası Parlament Assambleyasında Gürcüstanı təmsil edən nümayəndə heyətinin üzvləri tam tərkibdə "erməni əsirlərinin" qaytarılması ilə bağlı erməni deputatlar tərəfindən təqdim olunan qətnamə layihəsinə səs veriblər.



Ekspertlərin fikrincə, məsələyə sadəcə bir qrup deputatın fərdi mövqeyi kimi yanaşmaq doğru sayılmaz. Əslində isə bu addım rəsmi Tiflisin mövqeyidir. Gürcüstanın Azərbaycana qarşı bu cür davranışı erməni himayəçisi olan Qərb dövlətləri tərəfindən stimullaşdırılan bir hərəkətdir. Amma dərindən təhlil etsək, bu davranışın qonşu dövlətin öz maraqlarına da uyğun gəlmədiyini görərik. Çünki Gürcüstanın həyat yolu kimi baxdığı Türkiyə və Azərbaycan kimi dövlətlərin dəstəyini itirməsinin hansı nəticələr doğuracağı ciddi izahat tələb etmir. Bir sözlə, rəsmi Gürcüstan qonşuya yaraşmayan davranış sərgiləyib. Azərbaycana qarşı AŞ PA-dakı təmsilçiləri ermənilərlə birlikdə xüsusi canfəşanlıq göstərib. Habelə qardaş Türkiyə üçün həssas mövzu olan Ağrı dağı məsələsində saygısızlıq nümayiş etdirib. Həm də dəfələrlə bu cür davranışlara rəvac verib.

> "Gürcüstan bu yolla həm Qərbin, həm də Rusiyanın maraqlarına xidmət etmiş oldu"

**Qonşu ölkənin təəssüf doğuran addımını "Şərq"ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, AŞ PA sessiyasında Gürcüstan nümayəndə heyətinin tam tərkibdə qətnaməyə səs verməsi dövlətlərarası münasibətlərə xələl gətirən hadisədir.** Politoloqun sözlərinə görə, Gürcüstan parlamentarilərinin bu qətnaməni dəstəkləməsi şübhəsiz ki, siyasi hakimiyyətin göstərişidir: "Bu qətnamənin qəbulunda xarici faktorların təsiri də hiss olunur. Gürcüstan bu yolla həm Qərbin, həm də Rusiyanın maraqlarına xidmət etmiş oldu.

**Prezident Salome Zurabişvilinin Ermənistan prezidentini qəbul edərkən onun cızma-qara etdiyi Ağrıdağ şəklini paylaşması Türkiyəyə qarşı ərazi iddiası kimi başa düşülməlidir".**

Partiya rəsmisinin sözlərinə görə, hər iki davranış Azərbaycan və Türkiyə ilə səmimi qonşuluq prinsiplərinə ziddir və çox qıcıqlandırıcı bir hərəkətdir: "Bu qərar iki dövlət arasında münasibətlərə ciddi təsir etmir. Lakin ikili əlaqələrin daha da inkişaf etdirilməsinin qarşısı alınmalıdır. Bundan ötrü Azərbaycanın kifayət qədər təsir imkanları və manevrləri mövcuddur. Unutmayaq ki, Gürcüstanın Cənubi Osetiya və Abxaziya kimi ciddi ərazi problemləri var. Gələcəkdə siyasi qərarlar zamanı bunu nəzərə almalıyıq. Qonşu ölkənin quru yolla dünyaya çıxışı Azərbaycan və Türkiyə ərazisi ilə mümükündür. Gürcüstanın Azərbaycandan enerji asılılığı var. Avropaya yeni qaz xəttinin çəkilişi layihələrində İran və Ermənistan variantlarına baxmalıyıq və bu barədə niyyətimizi bildirməliyik. Həmçinin, Gürcüstanın türk və müsəlman əhalisi ilə daha sıx əməkdaşlıq etməliyik. Çox təəssüf ki, İran bu istiqamətdə bizdən daha fəal görünür".

**İsmayıl Qocayev**

# Paşinyanın əlində hələ bir "kozır" var

## O, seçkilərdə qalib gəlsə Koçaryan və Sarkisyanı Azərbaycana təhvil verməklə hədələyəcək

Nikol Paşinyanın rəhbərlik etdiyi hökumət ölkənin təhlükəsizliyini təmin edə bilmir. Bu barədə Ermənistan Respublika Partiyasının mətbuat katibi, parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov deyib. Şarmazanov Paşinyanın Sünik (Zəngəzur - red.) bölgəsinə səfəri və orada baş verən hadisələrə münasibət bildirib.



"Sünik (Zəngəzur -red.) sakinləri öz təhlükəsizliklərinə bir təhdid hiss edirlər, ona görə də Paşinyanın bölgəyə səfərinə bu şəkildə reaksiya verirlər. Ancaq anlamalıyıq ki, Sünikin problemləri yalnız bu bölgənin sakinlərini deyil, həm də bütün erməni xalqını narahat edir. Əgər sussaq, Qarabağı itirdiyimiz kimi Süniki də itirəcəyik".

Sözügedən bəyanat rəsmi İrəvandakı daxili vəziyyətin nə qədər gərgin olduğunu bir daha göstərir. Eyni ilə Rusiyada olduğu kimi, Ermənistanda da hakimiyyət tərəfdarları tədricən azalır. Kreml forpostunu da öz gününə saldı... Bütün bunların rəsmi İrəvan üçün nələr vəd etdiyi isə sual altındadır.

**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov düşmən ölkədəki daxili vəziyyəti "Şərq"ə şərh etdi:** "Bilirsiniz ki, Baş nazir Nikol Paşinyanın Zəngəzura səfəri zamanı insident yaranmışdı. Əhali bu səfərə qarşı çıxdı və heç bir demokratik ölkəyə yaraşmayan olaylar yarandı. Bir ay əvvəl insanların küçəyə axışaraq seçkilərin keçirilməsini tələb etməsi də məlumdur. Vəziyyətin yenidən o həddə çatacağını düşünmürəm. Lakin qarşıdurmanın yeni mərhələsi parlament seçkilərinə, yəni iyunun 2-dək davam edəcək. Bütün siyasi qüvvələr - istər iqtidar, istərsə də müxalifət üçün prioritet seçkilərdir".

**Ə. İbrahimov, həmçinin mövcud iqtidarın gələcək taleyi ilə bağlı fikirlərini də bölüşdü:** "Toqquşmaların Paşinyanın siyasi karyerasına təsir etməyəcəyi qənaətindəyəm. Hər halda o, Moskvaya səfəri zamanı hakimiyyətini qorumaq barədə Kreml rəhbərliyinin razılığını alıb. Yəni baş nazir ən azı seçkilərədək hakimiyyətdə qalacaq. Doğrudur, Qərblə yaxınlıq, Rusiyaya qarşı de-marşlar onu "ağa"sının gözündən salıb. Lakin indiki halda Moskvanın Paşinyanı dəstəkləməkdən başqa yolu yoxdur. Serj Sarkisyan və Robert Koçaryanın hakimiyyətə gətirilməsi ilə bağlı məsələlər zaman-zaman gündəmi zəbt etsə də, bunlar Paşinyanı qorxutmaqdan başqa bir şey deyil. Çünki Moskva rəhbərliyi Ermənistanda həmin siyasətçilərə qarşı olan münasibəti yaxşı bilir. Yerli əhali arasında onların tərəfdarları yoxdur. Əksinə, insanlar "Qarabağ klanı"na nifrət edirlər".

Professorun fikrincə, Şarmazanovun açıqlaması siyasi həmlədir: "Həmin siyasətçi Sarkisyanın ən yaxın adamıdır. Onlar indi Paşinyana qarşı qara piar kampaniyası aparırlar. Çünki hazırkı baş nazirin seçkilərdə qalib gəlməsi həm Koçaryan, həm də Sarkisyan üçün ciddi təhlükədir. Odur ki, keçmiş prezidentlər arasında ziddiyət olsa da, iqtidara qarşı münasibətdə eyni mövqedədirlər. Güman edirəm ki, Paşinyan seçkilərdə qalib gəlsə, sabiq dövlət başçılarının siyasi fəallığını azaltmaq məqsədilə onları Azərbaycana təhvil verməklə hədələyəcək və bunu edəcək".

**Professor Zəngəzurun taleyi məsələsinə toxundu:** "Əlbəttə, dövlət başçısı İlham Əliyevin dediyi kimi, biz bütün torpaqlarımıza qayıdacağıq. Prezidentin açıqlamaları Ermənistanda ciddi ajiotaj, panika yaradıb. Lakin həm hakimiyyət, həm də xalq bilməlidir ki, biz növbəti müharibəni istəmirik. Məsələlərin dinc yolla həllində maraqlıyıq. "Dəmir yumruğumuz" isə hər an havadadır. Yəni bizim atacağımız addımlar rəsmi İrəvanın özünü necə aparmasından asılıdır. Fikrimcə, bunu Paşinyan da başa düşür. Ermənistanda seçkilərədək ciddi kataklizm yaşanmayacaq. Baş nazir 10 noyabr bəyanatındakı şərtləri addım-addım yerinə yetirəcək. Çünki o, Ermənistanın gələcəyinin revanşist siyasətdən yox, Azərbaycan və Türkiyə ilə xoş münasibətlərdən keçdiyini anlayır".

**Kənan Novruzov**



## Zəngəzura qayıdış reallaşır

### "Ermənilərin proseslərə təsir etmək imkanları yox səviyyəsindədir"

**"Zəngəzur ətrafında baş verən hadisələr erməniləri təşvişə salıb. Qorxurlar ki, Azərbaycan Prezidentinin "ya xoşluqla, ya da güclə Zəngəzura qayıdacağıq" fikri gerçəkləşəcək".**

*Bu sözləri "Şərq"ə açıqlamasında BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov deyib.* Siyasi şərhçi vurğulayıb ki, Zəngəzur məsələsinin son vaxtlar gündəmdə olması bu ərazilərin gələcək taleyi ilə əlaqəli hansısa fəaliyyətlərin baş verdiyini göstərir: "Böyük ehtimalla Azərbaycan tərəfi 10 noyabr müqaviləsi ilə Qarabağla Ermənistan arasındakı koridorun əvəzində Zəngəzur dəhlizinin açılmasını və hətta birdəfəlik Azərbaycana verilməsini tələb edir. Görünür, Nikol Paşinyan bu məqsədlə Zəngəzura səfər edib, amma əhalinin narazılığı ilə qarşılanıb. Bu narazılıq əslində Ermənistanın digər ərazilərində yoxdur. Təkcə Zəngəzurda olması göstərir ki, bölgədə yaşayan əhali proseslərdən xəbərdardır".

**A.Qasımov bildirib ki, ermənilər yaxşı başa düşürlər ki, əgər belə proseslər gedirsə, gec-tez reallaşacaq:** "Ermənilərin proseslərə təsir etmək imkanları yox səviyyəsindədir. Rusiyanın bölgədəki gərgin hadisələri sakitləşdirmək cəhdi bizim mövqeyimizi dəstəkləmək yönündədir. Hər halda Azərbaycan ermənilər üzərində təzyiqini artırmalıdır. Erməni cəmiyyətinin məğlubiyyət sindromundan çıxmağa imkan vermək olmaz. Ötən gün sərhəddə baş vermiş məlum insidentlərin də qarşısını sərt şəkildə almalıyıq. Ermənilər özlərində güc tapıb revanşist fikirlərə düşməməlidir".

**İsmayıl**

## "Videonu görəndə pərişan oldum"

### "Elə etmək lazımdır ki, bir adam vəzifədə 5 ildən artıq qalmasın"



**Sabiq deputat, Yeni Azərbaycan Partiyasının (YAP) Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmovun videogörüntüləri ölkə gündəmindən düşmək bilmir. Sosial şəbəkə istifadəçiləri YAP üzvünü dayanmadan tənqid atəşinə tuturlar.**

**YAP-ın Siyasi Şurasının üzvü, ictimai-siyasi xadim, professor Şahlar Əsgərov məlum görüntülərlə bağlı "Şərq"ə danışıb:** "Hüseynbala Mirələmovun videosunu görəndə çox pərişan oldum. İnanmağım da gəlmir ki, YAP üzvü bu cür naqis hərəkət edib. Belə hadisənin baş vermə səbəbi odur ki, YAP-ın rayon təşkilatlarının sədrləri və digər məmurların vəzifələri və iş yerləri dəyişdirilməlidir. Elə etmək lazımdır ki, bir adam vəzifədə 5 ildən artıq qalmasın. Bu zaman çürüməyə başlayırlar. Ona görə də vəzifədə olan şəxslərin iş yerləri tez-tez dəyişdirilməlidir. Məsələn, rektorların özü hörmətli şəxs olaraq vəzifəyə gəlir, cəmiyyətin sevimlisi olur, sonra da dələduz biri olaraq gedir".

**Yeganə**

# Azərbaycan yalançını küncə sıxıb

## Rusiya suallara cavab verə bilmir və hər dəfə bir bəhanə gətirir

"İsgəndər-M" raketinin Şuşa şəhərində tapılması və bununla bağlı Rusiyanın heç bir açıqlama verməməsi dünyanın diqqət mərkəzindədir. Hətta ölkə başçısı İlham Əliyev açıq şəkildə Rusiyanın cavab verməli olduğunu söyləyib. Rəsmi Moskva isə gülünc iddialar səsləndirməkdə davam edir. Guya raketin qalıqları Suriyadan gətirilərək Şuşada yerləşdirilib.



Vladimir Putinin sükutu da "İsgəndər-M"lə bağlı sualları artırır. Maraqlıdır, Rusiya nə üçün "ağzına su alıb"?

**BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədlinin "Şərq"ə açıqlamasına görə, Rusiya rəhbərliyi əvvəlki dövrlərdə olduğu kimi bu gün də imperiya psixologiya ilə yaşayır:** "Kreml hər zaman ətrafındakı ölkələrə qarşı məhz imperiya düşüncəsinə uyğun davranıb. Bu baxımdan Rusiya ətrafındakı dövlətlərə ona borclu olduqları kimi yanaşır. Hətta sadə rus vətəndaşlarının da böyük bir hissəsi bu düşüncə ilə yaşayırlar. Düşünmürəm ki, rəsmi Moskva səmimi şəkildə "İsgəndər-M"lə bağlı açıqlama versin. Neçə müddətdir ki, bu məsələ gündəmdədir. Bəlkə də Rusiya İkinci Qarabağ savaşından sonra atdığı ilk addımlarında səmimi olsaydı, "İsgəndər-M"lə bağlı hadisə gündəmə gətirilməzdi. Yəni Azərbaycan məsələyə "oldu-keçdi" prinsipi ilə yanaşa bilərdi. Lakin Rusiyanın neytral mövqe tutmaması Azərbaycanı təngə gətirdi".

**Professor vurğulayıb ki, Rusiya Qarabağda şəxsi maraqları üçün möhkəmlənir:** "Hətta bu prinsipdən çıxış edərək gələcəkdə Ermənistana qarşı təzyiq göstərməyə çalışacaq. Eyni zamanda Azərbaycana da siyasi təzyiq göstərir. Beləliklə, "İsgəndər-M" raketinə dair məsələ gündəmə gətirildi və Rusiyaya mesajlar verildi. Bununla da bəlli oldu ki, "İsgəndər-M" yalnız Rusiya ərazisindən Azərbaycana qarşı istifadə olunan raket növüdür. Cəmiyyətdə belə bir sual yaranır ki, ola bilsin, raket Ermənistana gətirilib 102-ci bazadan istifadə edilib. Lakin belə deyil. Rusiyalı mütəxəssislər də qeyd etdilər ki, bu, Rusiya hərbi hissələrinə mənsubdur. Ölkə başçısı söylədi ki, "bu raketlər bizə Ermənistandan da atıla bilər, Rusiyadan da. "İsgəndər-M"in ermənilərin əlinə necə keçdiyinə dair Rusiya tərəfi açıqlama verməlidir".

Kreml bu mesajı dəqiqliklə tutdu. Ona görə də uzun zamandır ki, cavab verə bilmir. Açıq formada deyə bilmirlər ki, raket Rusiya ərazisindən Şuşaya atılıb. Rusiya mətbuatında "İsgəndər-M"in qondarma rejimin əlinə keçə bildiyinə dair xəbərlər qeyd olunurdu. Diqqəti qondarma rejimin üzərinə yönəltmək istəsələr də, bu zaman daha ciddi suallar yaranır.

Yəni ki, Rusiya hərbi arsenalına nəzarət edə bilmir ki, raketi Rusiyadan kənara çıxara bilsinlər və prezidentin bundan xəbəri olmasın? Ona görə də rəsmi Moskva gülünc iddialarla özünü dalana salıb. Bir də belə bir fikir səsləndirdilər ki, guya, Azərbaycan Suriya ərazisindən raket qalıqlarını gətirib Şuşaya qoyub. Bütün bunlar ağlasığmaz fikirdir. Reallıq ondan ibarətdir ki, Rusiya rəhbərliyi "İsgəndər-M"lə bağlı suala birbaşa cavab verə bilmir".

**Yeganə Bayramova**

# Bir az səbirli olsaq, gəlir gətirəcək

## Qarabağda sənaye parkının yaradılması yeni iş yerləri deməkdir



**"Qarabağda sənaye parklarının yaradılmasının və istifadəyə verilməsinin tez bir zamanda şahidi olacağıq". Bunu Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, "Regionların sosial - iqtisadi inkişafına dair" Dövlət Proqramlarının uğurla həyata keçirilməsi yeni tələblər qarşıya qoyur. Regionların iqtisadi-sosial həyatında əsaslı dəyişikliklər yaratmağı zərurətə çevirir:**

"Yerlərdə imkan və şəraitin olması, işıq, su, yol, qaz problemlərinin demək olar ki, aradan qaldırılması bu gün əvvəlki illərdən fərqli olaraq daha mütərəqqi, əhatəli tədbirlərin yerinə yetirilməsini, sənaye parklarının, məhəllələrinin, aqroparkların, emal və sənaye müəssisələrinin meydana gəlməsini şərtləndirir". T.Rzayev vurğulayıb ki, Hacıqabul sənaye məhəlləsinin istifadəyə verilməsi də bu baxımdan xarakterikdir və günün reallıqlarını özündə əks etdirir: "Dövlət başçısı həm də fərəhlə və qətiyyətlə bildirdi ki, Qarabağ zonasında da sənaye parkları olacaq. İndi İqtisadiyyat Nazirliyi bu məsələlərin üzərində işləyir. Qarabağ zonasında mütləq belə müəssisələr yaradılmalıdır ki, insanları işlə təmin edək, həm də ki, bu zonanın potensialından maksimum istifadə edək".

**Məsələni "Şərq"ə dəyərləndirən iqtisadçı-ekspert Fuad İbrahimov bildirib ki, Azərbaycanda sənaye parkları yaradılarkən iqtisadi faydası və riskləri mütəxəssislər tərəfindən dəqiqliklə müəyyən olunub.** Ekspertin sözlərinə görə, sənaye parklarının iqtisadi dövriyyəyə buraxılması və bundan konkret olaraq mənfəət əldə olunması uzunmüddətli və ağrılı proses ola bilər. Ancaq bir az səbirli olsaq, yaxın müddətdə sənaye məhəllələri, parkları institutial gəlir mərkəzinə çevriləcək: "Bu istiqamətdə təcrübəyə malikik. Artıq istehsal prosesindən iqtisadi dövriyyəyə cəlb etməyə keçidi müşahidə edirik. Məhsullarda ixrac potensialının faizi yüksək olmasa da, xüsusi çəkisi haqqında müəyyən müsbət fikirlər söyləyə bilirik. Sənaye parklarının gələcəkdə Qarabağda, işğaldan azad edilmiş torpaqlarımızda tətbiqi mütləqdir və vacibdir. Çünki işğaldan azad olunmuş torpaqlarımızda birbaşa qeyri-neft sektorunu əhatə edəcək sahələr inkişaf etdirilməlidir. Gen-bol əkin sahələri, münbit torpaqlar, zəngin təbii sərvətlər və sənaye mühiti baxımından Qarabağ çox əlverişli coğrafiyaya malikdir. Sənaye parklarının Qarabağda yaradılması ilk növbədə yeni iş yerlərinin yaranması deməkdir. Digər mühüm məqam isə xammalla zəngin torpaqlarda birbaşa istehsal prosesinin başlanmasıdır. Bu da əlavə daşınma xərclərindən xilas olmaq anlamına gəlir. Yəni bu addımı kompleks şəkildə bir çox istiqamətdə əlverişli hesab etmək olar".

**İsmayıl Qocayev**

## Vaxt verilib

### Njdenin büstünü ya sökəcəklər, ya da...

**"Njdenin büstünü sökmək üçün ermənilərə mayın 9-na qədər zaman verilib".**

Bu sözləri hərbi ekspert Ədalət Verdiyev deyib. Düşmənlərin indiyədək nə qədər vəd verdikləri və onların nə qədərinə əməl etdikləri hər kəsə məlumdur. Bəs bu dəfə?

**Millət vəkili, politoloq Rasim Musabəyov "Şərq"ə açıqlamasında səslənən iddialara münasibət bildirib:** "Əlbəttə, sökməlidirlər. Sökməyib, nə edəcəklər?! Özləri etməsələr biz cəmi bircə raketlə büstdən əsər-əlamət qoymarıq. Bu isə nə Rusiyanın xoşuna gələr, nə də Ermənistanın. Büstün sökülməməsi daha konkret addımlar atmaq üçün bizim əlimizə fürsət verəcək".

**Kənan**

## Axtarış zamanı tapıldı

### Azərbaycan daha 3 erməni hərbçinin meyitinin qalıqlarını təhvil verib



**Azərbaycan Qarabağda müharibədə ölən daha 3 erməni hərbçinin meyitinin qalıqlarını Ermənistana təhvil verib.**

APA-nın "Sputnik Armenia"ya istinadən verdiyi xəbərə görə, erməni hərbçilərin meyitlərinin qalıqları Ağdərə istiqamətində qarşı tərəfə verilib.

Bundan əvvəl də Azərbaycan xeyli erməni hərbçinin meyitinin qalıqlarını Ermənistana təhvil verib.

Bununla yanaşı, erməni tərəfinin Hadrut qəsəbəsi ərazisində dünən apardığı axtarış zamanı iki erməni hərbçinin meyitinin qalıqları aşkarlanıb.

*Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə 2020-ci il noyabrın 13-dən bəri 1 551 erməni hərbçinin meyitinin qalıqları tapılıb.*

## Ter-Petrosyan Paşinyanı aşağıladı

### "Ölkəmin baş nazirini bu qədər alçaldıcı vəziyyətdə görmək istəməzdim"



**Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyan baş nazir Nikol Paşinyanın Sünikə səfəri ilə bağlı tənqidi fikirlər səsləndirib.**

Bu barədə Sputnik Azərbaycan RİA Novosti-yə istinadla məlumat yayıb.

Qeyd edək ki, aprelin 20-də Paşinyan Sünikə səfəri zamanı Şurnuxu kəndinin sakinlərindən birinin evini ziyarət etmək istədiyini bildirib. Ev sahibəsi daha sonra jurnalistlərə verdiyi açıqlamasında hökumət başçısını içəri buraxmaq istəmədiyini, ancaq baş nazirin və onu müşayiət edən şəxslərin qapını döyüb içəri girdiklərini bildirmişdi.

"Mənə görə Paşinyanın "Sünik yürüşü"nün ən iyrənc epizodu onun Şurnuxuda axşam saatlarında icazəsiz bir qadının evinə girməsi idi. Ölkəmin baş nazirini bu qədər alçaldıcı vəziyyətdə görmək istəməzdim. Təəssüf ki, onun vətəndaşların hüquqları barədə təsəvvürləri bir təhkimçi ağanın təsəvvürlərindən fərqlənmir", - deyə Ter-Petrosyan öz açıqlamasında bildirib.

*Qeyd edək ki, çərşənbə günü Sünikdə Nikol Paşinyanın səfərinə qarşı etiraz aksiyası keçirilib. Sakinlər "Nikol satqın", "Nikol türk" şüarları səsləndiriblər.*

# Rusiya geri çəkilmək məcburiyyətində qaldı

> "Putin bütün dünya ilə müharibə apara bilməzdi"



Rusiya qoşunlarını Ukrayna sərhədlərindən geri çəkir. Bu barədə Müdafiə naziri Serqey Şoyqu məlumat verib. O qeyd edib ki, Rusiyanın Cənub və Qərb hərbi dairələrinin qoşunları Krım da daxil olmaqla cənub sərhədlərindəki daimi yerləşmə nöqtələrindən 23 aprel tarixindən etibarən geri çəkiləcək. Qoşunların geri çəkilmə müddəti mayın 1-nə qədər davam edəcək:

"Hesab edirəm ki, qəfil yoxlamanın məqsədlərinə tam şəkildə nail olunub. Qoşunlar ölkə üçün etibarlı müdafiə təmin etmək qabiliyyətini nümayiş etdirdi. Bu baxımdan Cənub və Qərb hərbi bölgələrində yoxlama fəaliyyətlərini tamamlamaq üçün qərar verdim".

O, Rusiya Silahlı Qüvvələrinin "Rusiya sərhədləri yaxınlığında vəziyyətlə bağlı bütün dəyişikliklərə adekvat reaksiya verdiyini" vurğulayıb. Qoşunların çıxarılması xəbərindən dərhal sonra Rusiya valyutası həm dollara, həm də avroya nisbətdə bahalaşıb.

**Rəsmi Moskvanın atdığı addımla bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyevin fikrincə, Rusiya qoşunlarının Ukrayna sərhədlərindən geri çəkilməsi indiki siyasi durumla bağlıdır:** "Qoşunlar 1 həftə ərzində geri çəkilirsə, deməli, orada ordu, döyüş texnikası və silah-sursat yığılıb. Bu, birmənalı şəkildə Ukraynanın müharibəyə hazırlığı idi. Amma bölgədə, xüsusilə Qara dənizdə sülhün bərqərar olması üçün Türkiyə çox ciddi mövqe tutdu və Ukraynanın ərazi bütövlüyünü dəstəklədi. Eyni zamanda bütün Avropa Rusiyanın üzərinə gəldi. Polşanın da Rusiyaya qarşı mövqeyi çox sərtdir. Putin bütün dünya ilə müharibə apara bilməzdi".

*C.Nuriyev hesab edir ki, Putin hələlik məqsədindən çəkilməsə də, siyasi marağından geri çəkilmək məcburiyyətində qalıb:* "Ukraynanın isə bu durumdan necə yaranlanması dair məsələ gündəmə gəlir. Ukrayna ərazi bütövlüyünü bərpa etməyə çalışsa, uğur qazana bilər. Yəni mayın 1-dən sonra ən azı Donbassı və Luqanskı Rusiyanın nüfuz dairəsindən çıxara bilər.

Ukraynada birmənalı şəkildə hərbi səfərbərlik elan olunub, Zelenski hərbi mükəlləfiyyətli hər kəsin orduya çağırılması üçün fərman imzalayıb. Bir məqamı nəzərdən qaçırmaq olmaz: Rusiyanın daxilində gərginlik həddindən artıq çoxalıb. Eyni zamanda hakimiyyətdaxili çəkişmələr də pik həddə çatıb. Xüsusilə, hakimiyyətdəki bütün şəxslərin Sankt-Peterburqdan olması ilə Putin yerliçilikdə ittiham edilir.

O, Rusiyanın daxilində yerlibazlıq etməklə, korrupsiya və rüşvəti yüksək səviyyəyə çatdırmaqda ittiham olunur. Rusiyanın resurslarının dağıdılması məsələsi də var.

Çünki dünya resurslarının 21 faizi Rusiyanın ərazisindədir. Amma bu qədər resursları olan dövlət pis gündədir. Halbuki, ABŞ da dünya resurslarının 21 faizinə nəzarət edir, lakin orada yaşayış səviyyəsi çox yüksəkdir. Amerika bütün hallarda bu resurslardan xalqı üçün istifadə edir. Amma Rusiyadakı resurslar Putinə yaxın olan adamların əlindədir. Ona görə də Putinin bunları götür-qoy edəndən sonra ordusunu Ukrayna sərhədlərindən geri çəkməsi gözlənilən idi.

Ümid edək ki, o bir də Ukrayna ilə bağlı belə bir addım atmaq qərarına gəlməz".

**Yeganə Bayramova**

# Mirələmov qovuldu

## YAP qoca üzvünə sərt üzünü göstərdi


Kollaj Rüfətindi

Hüseynbala Mirələmov Yeni Azərbaycan Partiyasının (YAP) üzvlüyündən çıxarılıb.

Bu barədə qərar dünən YAP İdarə Heyətinin iclasında qəbul edilib.

H. Mirələmov eyni zamanda YAP Veteranlar Şurasının üzvlüyündən də çıxarılıb.

Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclasının keçirilməsilə bağlı partiyanın Mətbuat xidməti açıqlama yayıb.

**Məlumatda deyilir:**

İclasda Azərbaycan Respublikası Seçki Məcəlləsinin 24-cü maddəsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının üzvü seçilmək üçün Yeni Azərbaycan Partiyasının namizədlərinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması, müstəqil deputatları Mərkəzi Seçki Komissiyasında təmsil edəcək namizədin Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə çıxarılmasına razılığın verilməsi, həmçinin YAP Veteranlar Şurasının üzvü, partiyanın Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmovun geniş ictimai qınağa səbəb olmuş hərəkəti ilə bağlı məsələlər müzakirə edilib.

YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasını MSK-da təmsil edəcək namizədləri İdarə Heyətinin müzakirəsinə təqdim edib.

İdarə Heyəti Pənahov Məzahir Məhəmməd oğlu, Qasımov Rövzət Afət oğlu, Əliyev Şaitdin Sərdar oğlu, İbrahimov Ramiz Hilal oğlu, Kazımova Validə Faiq qızı və Paşayev Hüseyn Məmməd oğlunun Mərkəzi Seçki Komissiyasının əsas, Hümbətov Suræddin Məmmədhüseyn oğlunun əvəzedici üzv seçilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verilməsi barədə qərar qəbul edib.

İdarə Heyəti həmçinin müstəqil deputatları Mərkəzi Seçki Komissiyasında təmsil edəcək Əsgərova Nailə Şahmərdan qızının namizədliyinin Milli Məclisin müzakirəsinə çıxarılmasına razılıq verilməsi barədə qərar qəbul edib.

İdarə Heyəti daha sonra gündəliyə uyğun olaraq, YAP Veteranlar Şurasının üzvü, partiyanın Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmovun geniş ictimai qınağa səbəb olmuş qeyri-etik hərəkəti ilə bağlı məsələni müzakirə edib.

Məsələ ilə bağlı İdarə Heyətinin üzvlərindən Musa Quliyev, Elmar Qasımov, Arif Rəhimzadə, Hikmət Babaoğlu, Bahar Muradova, Mübariz Qurbanlı, Ədalət Muradov və Rəşad Mahmudov çıxış ediblər.

Çıxışlarda qeyd edilib ki, sosial şəbəkələrdə yayılmış videogörüntülərdə Hüseynbala Mirələmovun etikadan kənar, əxlaqa zidd hərəkəti YAP üzvləri tərəfindən dərin təəssüf hissi ilə qarşılanıb və hiddətlə qınanılıb. Bildirilib ki, onun Azərbaycan ziyalısı adına layiq olmayan, qeyri-etik, milli-mənəvi dəyərlərdən uzaq davranışı cəmiyyətdə kəskin etiraz doğurub və ciddi müzakirələrə səbəb olub. Vurğulanıb ki, Hüseynbala Mirələmov Yeni Azərbaycan Partiyasının ali dəyərlərini, Nizamnamənin tələb və prinsiplərini kobud surətdə pozduğuna və təmsil olunduğu Yeni Azərbaycan Partiyasının nüfuzuna xələl gətirdiyinə görə partiya sıralarından xaric edilməlidir.

*İdarə Heyəti edilən çıxışlarda səslənən fikirləri və irəli sürülən təklifləri nəzərə alaraq Hüseynbala Mirələmovun tutduğu bütün seçkili vəzifələrdən azad edilməklə Yeni Azərbaycan Partiyasının sıralarından xaric olunması barədə yekdil qərar qəbul edib.*

**İsmayıl**



# Kənd təsərrüfatında işləməkdən boyun qaçırırlar

## General qaraçılarla bağlı araşdırmanı açıqladı

**"İnsan alveri cinayətləri hallarının araşdırılması və aradan qaldırılması istiqamətində fəaliyyət diqqət mərkəzində olub".**

"Report" xəbər verir ki, Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru, daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov deyib.

Onun sözlərinə görə, insan alverinin geniş yayılmış formasından olan məcburi əməklə bağlı geniş fəaliyyət həyata keçirilib:

"Uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 370 uşaq aşkarlanıb. Aparılan yoxlamalar həmin uşaqların əməyin qurbanı olmadığını, lakin, demək olar ki, hamısının Azərbaycanda uzun illər məskunlaşmış qaraçı ailələrindən olduqlarını göstərib. Araşdırmalarla məlum olub ki, onların valideynlərinin bələdiyyə və pay torpaqlarının olmasına, dövlətdən ünvanlı sosial yardımlar almalarına baxmayaraq, müxtəlif bəhanələrlə dövlət və özəl sektorda, eləcə də kənd təsərrüfatında işləməkdən boyun qaçırır, özlərinə peşə seçdikləri və azyaşlı uşaqlarını da cəlb etdikləri dilənçiliklə məşğul olurlar".

# ABŞ Türkiyə maraqlarından vaz keçməyəcək

## Böyük ehtimalla Bayden "soyqırım" ifadəsini işlətməyəcək

ABŞ Prezidenti Co Bayden hələ seçki təbliğatı zamanı bəyan etmişdi ki, Prezident seçiləcəyi təqdirdə 1915-ci ildə Anadoluda baş vermiş hadisələrin "soyqırım" kimi tanınması haqqında qətnaməni dəstəkləyəcək. ABŞ-da seçkiqabağı bu cür vədlər vermək ənənəvi hal alıb. Lakin bəzi ekspertlər düşünürlər ki, bu gün, yəni aprelin 24-ü Bayden "erməni soyqırımı" ifadəsini səsləndirməyəcək.

Amerikalı konqresmenlər vasitəsilə Baydenə təzyiqlər artıb və ondan "erməni soyqırımı" ifadəsini işlətməyi tələb edirlər. Türkiyə mediası Baydenin "erməni soyqırımı" ifadəsi işlədə biləcəyini vurğulasa da, bunun Ankara üçün böyük fəlakət anlamına gəlmədiyini yazır. Baydenin bu ifadəni işlətməsi ilə ciddi bir şeyin dəyişməyəcəyi aydındır. Lakin ABŞ siyasi dairələrində formalaşan fikrə görə, Bayden bu addımı ilə Türkiyə və Azərbaycanla münasibətlərə xələl gətirmiş olacaq.

**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu mövzu ətrafında fikirlərini "Şərq"lə bölüşüb.**

Analitik bildirib ki, Baydenin qondarma "erməni soyqırımı"nı tanıyacağı və yaxud "soyqırım" sözünü işlədəcəyi sualı aktuallaşıb:

"Bu "soyqırım"ın tanınması erməni lobbisi üçün nə deməkdir? Ermənilər bundan ümumi platforma düzəldiblər və öz icmalarını daim səfərbər etmək, onu təşkilatlanmış şəkildə saxlamaq üçün mövzunu həmişə istismar edirlər. O cümlədən Amerika Erməniləri Milli Komitəsi illər boyu müntəzəm olaraq çalışır ki, ABŞ prezidentləri tərəfindən "soyqırım" ifadəsi işlədilsin və tanınsın. Məsələ burasındadır ki, Amerika prezidentliyinə namizəd olan bir çox şəxs seçkilər prosesində "soyqırımı" tanıyacaqlarını deyiblər. Lakin son nəticədə heç biri tanımayıb və "soyqırım" ifadəsini işlətməyiblər. Səbəb isə çox sadədir. Amerika prezidentliyinə namizədlər bir tərəfdən erməni icmasının dəstəyini qazanmaq üçün bu vədi verirlər, digər tərəfdən isə ABŞ-ın siyasi-strateji və digər maraqları imkan verməyib ki, bu ifadəni işlədərək Türkiyə ilə münasibtələri korlasınlar.



**"Bu gün Amerika-Türkiyə münasibətləri özünün çox həssas dönəmini yaşamaqdadır"**

Bu gün Amerika-Türkiyə münasibətləri özünün çox həssas dönəmini yaşamaqdadır. Türkiyə müstəqil xarici siyasətini yürüdür, lakin bu siyasət bütün hallarda ABŞ-ın maraqları ilə üst-üstə düşmür".

Ə.Oruclu vurğulayıb ki, Bayden Administrasiyası, Baydenin özü və Konqresdəki müəyyən demokrat toplum ermənilərə daha rəğbətlə yanaşırlar: "Ümumiyyətlə, demokratlarda belə bir tendensiya var. Lakin erməni lobbisinin gücü o qədərdir ki, onlar məsələyə təsir göstərirlər. Fikrimcə, bu, yanlışdır. Baydenin "soyqırım" ifadəsini səsləndirməsi daha çox ABŞ-ın maraqlarından asılıdır. Bu baxımdan ermənilərə rəğbətlə yanaşan Baydenin "soyqırım" sözünü deməsi istisna edilmir. Digər tərəfdən isə Bayden hazırda özünün çox həssas və gərgin dönəmini yaşayan ABŞ-Türkiyə münasibətlərinə bunun təsirini nəzərə alaraq, belə ifadəni səsləndirməyə də bilər. Ona görə də məsələyə birmənalı fikir söyləmək çox çətindir".

**Politoloqun sözlərinə görə, konkret olaraq bunu demək olar ki, Bayden "soyqırım" ifadəsini işlətsə də, bu, heç nəyi dəyişməyəcək:** "Sadəcə, ABŞ-Türkiyə münasibətləri bir qədər də soyuyub, gərginləşəcək. Düşünürəm ki, məsələni dramatikləşdirməyə ehtiyac yoxdur. Dünyanın bir çox ölkələri qondarma "erməni soyqırımı"nı tanıyıb, amma bu tanıma heç bir məqama təsir göstərməyib. Nə Türkiyə ilə münasibətlərə, nə Ermənistanın hansısa uğuruna. Bayden belə ifadə işlətsə, faciə baş verməyəcək və Ermənistana hansısa dividendlər gətirməyəcək".

**Yeganə Bayramova**

# Ciddi islahatlara başlanmalıdır

## Ekspert nazirə haqq qazandırır

Ötən gün Təhsil naziri Emin Əmrullayev Təhsil İdarəçiliyi Beynəlxalq konfransında iştirak edib. Konfransda çıxış edən təhsil naziri bildirib ki, 1 milyon 600 min kompüterin alınması Azərbaycan təhsilinin problemlərini həll etməyəcək. Nazir bildirib ki, pandemiya dövründə ən çox müzakirə olunan məsələlərdən biri şagirdlərin kompüterlərlə təchizatı məsələsidir:



## *Yalnız kompüterlə təhsilin problemlərini həll etmək mümkün deyil*

”Başa düşürəm ki, kompüter olduqca vacibdir və rəqəmsallaşma Azərbaycan təhsilinin ən vacib prioritetlərindən biridir. Eyni zamanda, şagirdlərin, müəllimlərin daha çox rəqəmsal alətlərdən istifadəsi imtahanların rəqəmsallaşması, kompüter əsaslı imtahanların keçirilməsi və s. Təhsil Nazirliyinə və digər təhsil idarəedicilərinə daha çox məlumat ötürməyə, məlumatları düzgün toplamağa, sistemləşdirməyə, həmin məlumatlar əsasında daha yaxşı qərarlar qəbul etməyə imkan verir. Bu, məsələnin danılmaz həqiqət hissəsidir. Amma 1 milyon 600 min kompüteri qısa zaman ərzində şagirdlərə alıb paylamaq Azərbaycan təhsilinin problemlərini həll etməyəcək”.

**Mövzuya münasibət bildirən təhsil eksperti Nabatəli Qulamoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, həqiqətən də yalnız kompüterin alınması Azərbaycan təhsilinin problemlərini həll edəcək məsələ deyil.** Onun sözlərinə görə, ümumiyyətlə, Azərbaycanın təhsil siyasətində köklü islahatlara ehtiyac var: ”Yalnız kompüter almaqla təhsil problemlərini həll etmək mümkün deyil. Çünki təhsil sistemində bir sıra ciddi problemlər hələ də qalmaqdadır. Buna görə də təhsildə köklü islahatların tərəfdarıyam. Bir kompüter almaq, yaxud da ki, təhsilin bu və ya digər formasından istifadə etmək kimi məsələlər təhsilin problemini həll etmir. Bunun üçün ciddi köklü islahatlara ehtiyac var. Sual oluna bilər ki, köklü islahatlar nədir? Qeyd edim ki, köklü islahatlar yalnız o vaxt baş verə bilər ki, dövlət başçısı ölkədə siyasi islahatlar aparar və həmin siyasi islahatların tərkibində təhsil islahatları da gedər”.

*Təhsil eksperti hesab edir ki, təhsil islahatları zamanı ən önəmli məsələlərdən biri təhsilə azadlığın verilməsidir:* ”Fikrimcə, ilk növ təhsilə azadlıq vermək lazımdır. Bu azadlıq da ondan ibarətdir ki, təhsil verən də, təhsil alan da təhsil bazarında özü seçim imkanına sahib ola bilsin. Həmçinin, ilk növbədə dövlət sektorunun, özəl sektorun və bələdiyyə sektorunun birgə inteqrasiyasını təşkil etmək lazımdır. Bundan başqa rəqabətə xüsusi önəm verilməlidir. Hər şey də bax bundan doğur. Doğrudan da rəqabət olsa, həmin rəqabət nəticəsində təhsil inkişaf edəcək. Bu günləri bir çox şagird üçün distant təhsil daha əlçatandır. Amma eləsi var ki, distant təhsil ona sərfəli deyil. Düzdür, faktiki olaraq bu günləri ölkədə distant təhsil zəif də olsa, fəaliyyət göstərir. Distant təhsilin əsasən, dövlət sektorundan ayırması nəzərdə tutulur. Ümumiyyətlə, hesab edirəm ki, bu günləri dövlət sektoru boşuna işləyir. Çünki onun hazırda heç bir səmərəsi hiss olunmur. Məsələn, bu gün faktdır ki, hər bir kəs fərdi şəkildə müəllim yanına gedir və imtahanlarda yüksək nəticə göstərir. Bu zaman bildirirlər ki, bu şagird filan məktəbin yetirməsidir. Amma halbuki, məktəbdə ona mövzu barəsində ətraflı izah verilməyib. Bunu yalnız fərdi yolla öyrənib. Bu baxımdan düşünürəm ki, təhsil siyasətində ciddi islahatlara ehtiyac var. Təhsil nazirinin dediyi kimi, yalnız kompüter alıb şagirdlərə paylamaq, Azərbaycan təhsilinin problemlərini həll edəcək bir məsələ deyil”.

**Aynurə Pənahqızı**

# Daha 1 809 nəfər koronavirusa yoluxub

## 33 nəfər ölüb, 191 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 809 yeni yoluxma faktı qeydə alınıb, 2 191 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 33 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 309 789 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 274 766 nəfər müalicə olunaraq sağalıb, 4 307 nəfər vəfat edib. 30 716 nəfər aktiv xəstə sayını təşkil edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 097, bu günə qədər isə ümumilikdə 3 164 974 test icra olunub.*

# 100 nəfər həbs edilib

## Azad edilmiş ərazilərə qanunsuz keçmək istədilər



**Ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərə qanunsuz olaraq keçməyə cəhd göstərərək inzibati qaydada həbs olunan şəxslərin sayı məlum olub.**

”Report”un əldə etdiyi məlumata görə, azad edilmiş ərazilərə qanunsuz olaraq keçməyə cəhd göstərən 1 321 nəfərdən 100-ü inzibati qaydada həbs olunub.

*Bundan başqa, 31 nəfər şəxs barəsində isə cinayət işi başlanılıb.*

# Orta məktəblərdə din tədris olunmalıdır

## Bu, dini simvolların təhsil ocağına daşınması, dindarlar ordusu yetişdirmək demək deyil

Dünən Milli Məclisin növbəti plenar iclasında deputat Etibar Əliyev maraqlı təkliflə çıxış edib. O bildirib ki, ölkəmizdə orta məktəblərdə dinin tədris edilməsi müzakirə olunur:

”Təhsil sistemi güclü olan Finlandiyada isə din dərsi məcburidir. Türkiyədə din dərsi dövlət və özəl məktəblərdə keçirilir. Ölkədə daha çox dominant din olan islam dini ilə bağlı məlumatlar verilir. Ölkəmizdə bu sahədə ciddi boşluqlar mövcuddur. Bölgələrdə dini düşüncələr yalnız erkən nikah, məktəblərdən uşaqların alınması şəklindədir. Ciddi mütəxəssislər tərəfindən dinlər tarixi və ixlas bilgisi adlı kitab hazırlamaq lazımdır. Əks təqdirdə bu boşluq daha da genişlənəcək və gənclərimiz zərərli dini düşüncələrə gedəcəklər”.

**Təhsil eksperti Kamran Əsədov “Şərq”ə açıqlamasında parlamentarinin səsləndirdiyi fikirlərə münasibət bildirdi:** ”Məktəblərdə dini biliklərin verilməsi dini simvolların təhsil ocağına daşınması, dindarlar ordusu yetişdirmək demək deyil, insanların bir qisminin ifrat dərəcədə dindarlaşmasının, digərlərinin elementar təsəvvürlərdən məhrum edilməsinin, başqa sözlə, cəmiyyətin qütbləşməsinin qarşısını almaq, bütün vətəndaşları bir araya gətirmək, dini dəyərlərlə dini fanatizm və mövhumatın tam fərqli anlayışlar olduğunu anlatmaq deməkdir. Bir çox ölkələrdə, o cümlədən qonşu Gürcüstan və Rusiyada bu prosesə artıq başlanılıb. Hazırda Rusiyanın ümumtəhsil məktəblərində ”Dini mədəniyyətlərin və dünyəvi etikanın əsasları” adlı fənn tədris olunur. Orta təhsil müəssisələrində din fənninin tədrisi imkan verəcək ki, həm şagirdlərin dini cəhətdən savadlanması sağlam əsaslar üzrə baş versin, həm də onlar tarixi ənənəmiz və keçmişimizin dini tərəfini öyrənsinlər. Əxlaqi tənəzzül və həyata baxış tərzinin xalqımıza yad təmayüllərin təsiri ilə cılızlaşması, ictimai əxlaq qaydalarının pozulması, ailədaxili tərbiyənin xoşagəlməz format kəsb etməsi daha çox azyaşlılara və gənclərə təsir göstərir. Məhz bu zəruri edir ki, orta məktəblərin aşağı siniflərindən başlayaraq dini biliklər tədris olunsun. Dini tədrislə məşğul olacaq müəllimlərin ölkə daxilində, yaxud da xaricdə təhsil alması fərq etmir. Əsas budur ki, müəllim islam dinini yaxşı bilsin, ölkəmizin milli-mənəvi ”xəritə”sinə bələd olsun. Xaricdə oxuyan əksər dindarların, bəlkə də, ən çatışmayan cəhəti Azərbaycan reallığına bələd olmamaları, təhsil aldıqları ölkələrin dini mühiti ölkəmizdə kor-təbii şəkildə yaratmaq cəhdləridir”.

> “Orta təhsil müəssisələrində din fənninin tədrisi imkan verəcək ki, həm şagirdlərin dini cəhətdən savadlanması sağlam əsaslar üzrə baş versin”




**K.Əsədov, həmçinin sözügedən fənnin tədrisinə verilən tələblərdən söz açdı:** ”Bir sözlə, yerli məzunların əksəriyyəti sağlam dini tədris aparacaq səviyyədə deyil. Din fənnini şagirdlərin yaxşı mənimsəməsini təmin edən əsas amillərdən biri müəllimin özünün dinin əmr və qadağalarına riayət etməsi, əxlaq və davranışı, həyat tərzi ilə onlara nümunə olmasıdır. Bununla yanaşı, din fənninin tədrisini aparan müəllimin pedaqoji və psixoloji biliyi olmalı, tədris zamanı yekcins çatdırma və öyrətmədən uzaq durmalıdır. İslama dar baxış, dünyagörüşünün məhdudluğu da din fənninin tədrisi ilə məşğul olacaq müəllimlər üçün yolverilməzdir. Əxlaqlı, mənəviyyatlı, milli-mənəvi dəyərlərə malik və vətənə sevgisi olan insan uşaq ikən formalaşdırılmalıdır. Bunun üçün din dərsinin tədrisi ən münasib üsullardandır. İslamın gözəlliklərindən, Məhəmməd peyğəmbərin yüksək əxlaqından məlumatlı olan hər bir şagird bundan özünə ibrət götürəcək. Habelə din dərsi insanlarda mənəvi və dini boşluğun doldurulmasına da böyük töhfə verəcək. Adətən gənclər islamı düzgün dərk etmədikdə yanlış yollara meyl edirlər. Düşünürəm ki, doğru və dolğun dini təhsil bu problemin də aradan qaldırılmasına imkan verəcək. Amma vacib bir məqamı qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Konstitusiyasının və ”Təhsil haqqında” Qanunun tələblərinə görə, din dövlətdən ayrıdır. Qanunvericilik aktlarına görə, orta məktəblərdə hansısa dini mərasimlərin keçirilməsi, onun təbliğ edilməsi yolverilməzdir”.

**Kənan Novruzov**

# ABŞ-ı hegemon güc hesab etmək olmaz




*"Çinin təkcə iqtisadi və siyasi gücü deyil, son illərdə ordu gücü və hərbi gücü kifayət qədər artıb"*

ABŞ-ın yeni administrasiyasının dünyada kiminsə onlarla müqayisə ediləcək hərbi-siyasi potensial və infrastruktur imkanlarına sahib olduğunu etiraf edəcək mənəvi gücü yoxdur.

Bunu Rusiya Təhlükəsizlik Şurasının sədrinin müavini Dmitri Medvedyev deyib. "Məsələn, Çin və ya Rusiyanı... SSRİ ABŞ tərəfindən bərabərhüquqlu rəqib kimi qəbul edilirdi. Bu, tərəflərin hərbi-siyasi pariteti ilə bağlı idi, hansı ki, bunun saxlanılması üçün beynəlxalq təşkilatlar sistemi yaradılmışdı. SSRİ-nin süqutundan sonra bu paritet müəyyən müddət yoxa çıxdı", - deyə o bildirib.

**Mövzuya münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi-şərhçi Tural İsmayılov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Amerika Birləşmiş Ştatlarının hərbi büdcəsi dünyada ilk sıralarda yer alır:** "Dövlət büdcəsindən hərbi büdcəyə ayrılan maliyyə tutumuna görə, Amerika Birləşmiş Ştatları ön sıralardadır. Lakin buna baxmayaraq ABŞ ordusu dünyanın ən güclü ordusudur şəklində hansısa informasiya buraxmaq və başqa ölkələrin daxili işlərinə qarışmaqla bağlı siyasət yürütmək özü də ədalətsizlik hesab olunmalıdır. İstənilən halda biz digər dövlətlərin ordusunun ABŞ ordusundan zəif olması ilə bağlı fikirlərin özünə də əminliklə "hə" deyə bilmərik".

*T.İsmayılov qeyd edib ki, Çinin təkcə iqtisadi və siyasi gücü deyil, son illərdə ordu gücü və hərbi gücü kifayət qədər artıb:* "ABŞ təkbaşına hərbi baxımdan hegemon güc hesab olunsaydı, o zaman NATO və yaxud da digər hərbi, siyasi alyanslar qurulmazdı. Avro-Atlantik ideoloji təbliğat şüuru baxımından ABŞ-ın hərbi qüdrəti ilə bağlı qəsdli şəkildə müəyyən informasiya sistemləri buraxılır. Ümumiyyətlə, düşünürəm ki, dünyada normal siyasi-əxlaqi şüur olmalıdır. Qədim dövrdən bəri siyasət fəlsəfəsinin əsas tezisi də elə siyasi əxlaq şüurunun üzərində qurulub. Yəni hərbi gücə görə üstün olan dövlətlər digər dövlətlərin daxili işlərinə qarışmaq, həmin dövlətlərlə hansısa xaosla çalxalanmaq hüququna əslən malik deyillər. Hesab edirəm ki, başqa ölkələrin daxilində siyasi qarışıqlıqlar yaratmaq istənilən halda təəssüf ki, hazırkı dünyanın real mənzərəsidir".

**Aynurə Pənahqızı**

## "Yerevan hərbçilərinə nəzarət etmir"

### Rusiyalı ekspert: "Orada böyük təhlükəsizlik problemləri var"




**"Zəngəzur dəhlizi Cənubi Qafqaz bölgəsində kommunikasiyaların tam bərpası üçün ilk böyük layihə olacaq.**

Bu, bu gün mövcud olan bütün kommunikasiya məhdudiyyətlərinin aradan qaldırılmasına təkan verəcək. Dəhliz Ermənistan üçün də faydalı olacaq, çünki o, tranzit ölkəyə çevrilərək daşınmalar sayəsində gəlir əldə edə biləcək".

*Bu fikirləri "Report"un Rusiya bürosuna "Vestnik Kavkaza" agentliyinin baş analitiki Andrey Petrov bildirib.*

Ermənistan-Azərbaycan sərhədində erməni tərəfinin son təxribatlarını şərh edən ekspert, erməni hərbçiləri arasında nizam-intizamın olmadığını qeyd edib: "Buna nəzarət edə biləcək komandan heyəti yoxdur. Yerevan hərbçilərinə nəzarət etmir və orada böyük təhlükəsizlik problemləri var. Rusiya sülhməramlıları erməni tərəfindən ən azından kiminsə təhlükəsizliyə riayət etməsini təmin etmək üçün oradadırlar".

## Aleksey Navalnı aclıq aksiyasını dayandırıb



**Hazırda Vladimir vilayətində cəzaçəkmə müəssisəsinin xəstəxanasında saxlanılan Rusiya müxalifətinin lideri Aleksey Navalnı aclıq aksiyasını dayandırıb.**

"Report" BBC-yə istinadən xəbər verir ki, o, məsələ ilə bağlı müraciət yayıb.

"Aclıqdan çıxmağa başlayıram", - müxalifət lideri bildirib.

*Qeyd edək ki, A.Navalnı həkimlərin onu müayinə etməsi tələbi ilə martın 31-dən aclığa başlamışdı. Bir müddət əvvəl müalicə həkimləri A.Navalnını aksiyanı dayandırmağa çağırmışdılar.*

## Ermənistanda daha bir nazir istefa verdi



**Ermənistanın əmək və sosial məsələlər üzrə naziri Mesrop Arakelyan aprelin 23-də tutduğu vəzifədən istefa verib.**

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, bu barədə nazir feysbuk səhifəsində yazıb.

Onun sözlərinə görə, müharibədən sonra yaranan vəziyyətin çətinliklərini dəf etmək üçün məsuliyyəti üzərinə götürüb. Nazir bildirib ki, hazırda bu istiqamətdə sosial problemlər aradan qaldırılıb.

Məlumata görə, Arakelyan hökumətin bir sıra qərarlarına qarşı çıxıb. O, hətta yeni il tətillərinin yanvarın 2-dək azaldılmasına qarşı çıxmış, bunun iqtisadi baxımdan birmənalı qarşılanmadığını söyləmişdi.

# Sonun başlanğıcı...

*"Moskvanın işi qat-qat çətin olacaq"*



Samir Hümbətov: "İndi Rusiya ABŞ üçün İrandan da əvvələ keçib"

Rusiyanın xarici və daxili siyasətinin çox gərgin olduğu, az qala, hər kəsə məlumdur. Mövcud situasiyanı görmək və qiymətləndirmək üçün heç də politoloq olmağa ehtiyac yoxdur. Mənzərə aydındır: Kreml özünü eyni ilə ayı kimi aparır və dominant mövqeyindən əl çəkmir. Elə bilir ki, qütbün ağası məhz özüdür.

Və nəyi necə istəyirsə, elə də olmalıdır. Üstəgəl, daxildə də narazılıq artmaqdadır. Müxalifət lideri Navalnının tərəfdarları artdıqca mövcud iqtidar "qalstukunu bir az da boşaltmalı olur". Görünür, hakimiyyət "Nə tökərsən aşına, o da çıxar qaşığına" atalar misalının təsdiqini gec də olsa tapmalı olacaq.

*Siyasi analitik Samir Hümbətov rəsmi Moskvanın apardığı diplomatiyaya uyğun yaxın gələcək barədə proqnozlarını "Şərq"lə bölüşdü:*

**- Rusiyanın əsas rəqibi olan ABŞ-la münasibətlərin inkişafını necə dəyərləndirirsiniz?**

- Bayden hələ hakimiyyətə gəlməzdən əvvəl demişdi ki, "məşğul olacağı" əsas dövlət Rusiya olacaq. Elə də oldu. İndi Rusiya ABŞ üçün İrandan da əvvələ keçib. Hərçənd, əvvəllər əksinə idi. Əlbəttə, rəsmi Vaşinqton yaxşı bilir ki, müharibəyə başlamaq məqsədəuyğun deyil. Ona görə də başqa vasitələrdən istifadə edir.

**- Hansı vasitələrdən?**

- Birincisi, Navalnı kimi müxalifət nümayəndələri vasitəsilə daxili çaxnaşma yaradır. İkincisi, Avropadakı tərəfdaşları vasitəsilə Rusiyaya qarşı beynəlxalq təcrid siyasəti yeridir. Və üçüncüsü, iqtisadi faktorlardan istifadə edir. Məsələn, Kremli beynəlxalq ödəniş sistemindən çıxarır. Üstəgəl, iqtisadi sanksiyalar tətbiq edir. Beləliklə, Rusiya İranın vəziyyətinə düşür. Sadəcə, Rusiyadan fərqli olaraq, İran daxili istehsalı hesabına bu təzyiqlərə müqavimət göstərə bilir. Şimal qonşumuzun iqtisadiyyatı isə ancaq neft-qaz və silah satışı üzərində qurulduğuna görə durumu daha gərgindir.

**- Elə isə Rusiyanın gələcəyi necə olacaq?**

- Bütün bunlar daxildə parçalanma yaradır. Ümumiyyətlə, Qərb beynəlxalq təcrid yolu ilə Rusiyanı çökdürmək istəyər. Bunun nə vaxt olacağını dəqiq demək çətindir. Lakin indiki siyasətini davam etdirsə, gələcəkdə rəsmi Moskvanın işi qat-qat çətin olacaq. Həm iqtisadi, həm də siyasi gərginlik yaradacaq. Beynəlxalq siyasəti Kremlin işini daha da çətinləşdirir.

**- Niyə belə düşünürsünüz?**

- Rusiya parlaq gələcəyini təmin etmək üçün Qərblə "dil tapmalıdır". Təkcə Çinlə, Türkiyə ilə iş birliyi kifayət deyil. Hərçənd Türkiyə ilə Rusiya arasında ciddi rəqabət var. Qarşılıqlı iqtisadi layihələrə, ticarət dövriyyəsinə rəğmən, rəsmi Ankara Rusiyanı Qarabağdan çıxarmaq niyyətindədir. Moskva isə əksinə, torpaqlarımızdakı mövcudluğunu qorumaq istəyir. Beləliklə, Qərbin təzyiqlərindən də istifadə edib qarşıdakı beş ilədək Rusiyanı Qarabağdan çıxarmağı planlayır və bunun üçün əlverişli vaxtı gözləyir. Üstəgəl, Hindistanla münasibətlər də o qədər yaxşı deyil. Çünki Rusiya-Çin-Pakistan əməkdaşlığı Dehlini narahat edir. Nəticədə bu dövlət Qərblə yaxınlaşmağı üstün tutur. Dediyim kimi, Rusiyaya qarşı "ofsayt" siyasəti yeridilir və məqsəd onu dünyadan təcrid etməkdir.

**- Belə iddialar var ki, Navalnı hakimiyyətin nəzarəti altında fəaliyyət göstərir. Sizin həmin fikrə münasibətiniz necədir?**

- Belə olsa idi, iqtidar Navalnının Almaniyaya getməsinə icazə verməzdi. Bilirsiniz ki, bundan əvvəl müxalifət nümayəndələrindən birinə qarşı sui-qəsd təşkil edildi. Ümumiyyətlə, Putin etirazçıları əvvəlcə öz tərəfinə çəkməyə çalışır. Bunu bacarmayanda isə onları ya öldürtdürür, ya da lazımi məqamı gözləyir. Navalnıya qarşı bir dəfə sui-qəsd təşkil edilsə də, nəticəsiz qaldı. İndi isə o artıq Rusiyanın deyil, Qərbin nəzarətindədir.

**Kənan Novruzov**

## İctimai və dövlət maraqlarının müdafiəsi

İcbari tibbi sığorta artıq bütün ölkəni əhatə edir. Sonuncu - üçüncü mərhələdə paytaxt Bakı da icbari tibbi sığorta məkanına daxil oldu. Bununla da səhiyyə sistemində icbari sığortanın tətbiqi tamamlandı. Pandemiya dövründə icbari tibbi sığortanın tətbiqinin başa çatdırılacağına inanmaq, açığı, bir az çətin idi. Dünya koronavius bəlası ilə çarpışdığı bir vaxtda, ölkəmizdə də yoluxma və ölüm sayında müsbət dəyişilik hələ ki, müşahidə edilmədiyi, COVİD-19 əleyhinə peyvəndlənmə kampaniyasının daha vacib olduğu və davam etdiyi şəraitdə, doğrusu, icbari tibbi sığorta sahəsində yekun nəticəyə gəlinəcəyi o qədər gözlənilmirdi.




# Bütün ölkə boyu icbari tibbi sığorta tətbiq edilir

## *Vətəndaşlar tibb müəssisələrinə rahat bir şəkildə müraciət edə bilər*

Lakin Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsasən sosial yönümlü olduğu bir daha təsdiqini tapdı. İcbari tibbi sığortanın çətin bir mərhələdə tam tətbiqinə nail olunması sübut etdi ki, Azərbaycan dövləti, cənab Prezident İlham Əliyevin təyin etdiyi, vətəndaşların rifah halının yaxşılaşmasına, hər bir vətəndaşın ödənişsiz tibbi xidmətlərdən yararlanmasının təminatına, bununla da ictimai maraqların müdafiəsinə yönəlmiş siyasətinə sadiqdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əlievin 20 dekabr 2018-ci il tarixli sərəncamına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs yaradıldı. Prezidentin sərəncamında bildirilirdi ki, məqsəd ölkədə səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun tibbi yardımla təmin olunmasıdır. Və bunlar ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son illərdə həyata keçirilən islahatlarla dövlətin iqtisadi potensialının daha da artması ölkədə səhiyyənin inkişafına və əhalinin sağlamlığının qorunması problemlərinin davamlı həllinə nail olmağa imkan yaradır. Bu da əhali arasında icbari tibbi sığortanın tətbiq edilməsinə imkan verir.

### Pilot layihələrdən tam tətbiqə doğru

Məlum olduğu kimi, icbari tibbi sığortanın tətbiqinə Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında pilot layihələrin icrası ilə başlandı. İcbari tibbi sığorta təcrübəsi dünyanın bir sıra ölkələrində oturuşmuş sistem olsa da, Azərbaycan üçün yenilik idi və bu sahədə təcrübə əldə edilməmişdi. Pilot layihələrin tətbiqində məqsəd də tibbi sığortanın çətinlik yaradacaq tərəflərini öyrənmək, sistemə bələd olmaqdan ibarət idi. Qısa müddət ərzində layihələrin özünü doğrultduğu göründü və ikinci, üçüncü mərhələlərin icrasına başlanıldı. Hazırda bütün ölkədə icbari tibbi sığorta tətbiq edilir. Xatırladaq ki, 01 yanvar 2021-ci il tarixdən etibarən Azərbaycanda icbari tibbi sığortanın ikinci mərhələdə tətbiqinə başlanıldı. Bununla da ölkənin daha 36 şəhər və rayonu - Gəncə, Naftalan, Şirvan, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy, Xocalı, Beyləqan, Xocavənd, Ağcabədi, Laçın, Bərdə, Füzuli, Ağdam, Tərtər, Kəlbəcər, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Neftçala, Biləsuvar, Cəbrayıl, Salyan, İmişli, Saatlı, Sabirabad və Hacıqabul icbari tibbi sığorta sisteminə qoşuldu. Sonuncu - üçüncü mərhələdə - 1 aprel 2021-ci il tarixindən etibarənsə Bakı, Sumqayıt, Abşeron, Xankəndi, Qubadlı, Zəngilan və Şuşa əhalisi icbari tibbi sığorta ilə əhatə olunub artıq. Bu ilin mart ayı ərzində əhalinin hər 1000 (min) nəfərinə tibb müəssisələrinə olunan müraciət sayına görə ilk onluqda yer alan şəhər və rayonlar arasında Mingəçevir, Şirvan şəhəri, Yevlax, Zaqatala, Ağdaş, Qəbələ, Oğuz, Ağstafa rayonları, Gəncə şəhəri və Göyçay rayonudur. Ən çox xidmət göstərmiş tibb müəssisələrinin ilk onluğunda da Mingəçevir şəhər Mərkəzi Xəstəxanası və Gəncə Birləşmiş Şəhər Xəstəxanası yer alır. Bu, həmin ərazi üzrə əhali sayının daha böyük olması, ətraf bölgələrdən, kənd və qəsəbələrdən bu tibb müəssisələrinə vətəndaşların daha çox üz tutmasıyla əlaqələndirilir. Ən çox ambulator xidmət, eləcə də stasionar xidmət göstərən tibb müəssisələrinin ilk onluğunda da Mingəçevir şəhər Mərkəzi Xəstəxanası, Gəncə Birləşmiş Şəhər Xəstəxanası ilk sıradadır. 2021-ci ilin mart ayı ərzində tibbi ərazi bölmələri üzrə göstərilmiş tibbi xidmət sayına görə Bərdə-Yevlax, Şəki-Zaqatala, Quba-Xaçmaz , Gəncə gəlir. İcbari tibbi sığorta sisteminin bütün ölkə üzrə tətbiqinə başlanmasıyla əlaqədar İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatında qeyd edilir ki, Agentlik tərəfindən tibbi xidmətlərin hamı üçün əlçatan olması və əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Sözügedən proseslərin gedişində vətəndaş-qurum arasında qarşılıqlı əlaqənin formalaşdırılması əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Agentlik mütəmadi olaraq vətəndaşları icbari tibbi sığortanın tətbiqindən irəli gələn, həmçinin qurumun səlahiyyətinə aid olmayan məsələlərlə bağlı müraciətlərin aidiyyəti üzrə baxılması barədə məlumatlandıracaq.

*"İcbari tibbi sığortanın Xidmətlər Zərfinə 2550 sayda müxtəlif tibbi xidmət daxildir"*

### İcbari tibbi sığortaya nələr daxildir?

Qeyd edək ki, hazırda əhalini ən çox düşündürən və ən çox soruşulan da məhz bu məsələdir. Vətəndaş bilmək istəyir ki, tibbi sığortadan necə, hansı hallarda, hansı xəstəliklər zamanı yararlana biləcək. Məlumat üçün bildirək ki, icbari tibbi sığortanın tətbiq edildiyi yerlərdə əhali tərəfindən tibb müəssisələrinə müraciətlərin çoxu tibbi müayinə (hərbi xidmətə çağırılanların müayinəsi daxil olmaqla), qan dövranı sistemi, endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozğunluğu, həzm, sidik-cinsiyyət, tənəffüs, sümük-əzələ sisteminin və birləşdirici toxumanın xəstəlikləri, habelə mamalıq və ginekologiya, sinir sistemi xəstəlikləri, gözün və gözün əlavə aparatının xəstəlikləri ilə bağlı olub. Agentlik vətəndaşların təbii maraqlarını nəzərə alaraq Xidmət Zərfi barədə məlumat verib. Qeyd olunur ki, Xidmətlər Zərfi çərçivəsində əhaliyə 2550 sayda müxtəlif tibbi xidmət göstərilir. Sığortaolunanlar ixtisaslı həkimin göndərişi əsasında tibb müəssisəsində Xidmətlər Zərfi çərçivəsində nəzərdə tutulan qaydalara uyğun olaraq tibbi xidmətlərdən ödənişsiz şəkildə yararlana bilər. Xidmətlər Zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin göstərilməsi üçün vətəndaşlar tibb müəssisələrinə (post terminallarına) ödəniş etməlidir. Ödəniş icra olunduqdan sonra vətəndaşa ödənişi təsdiq edən sənəd (qəbz) təqdim olunur. Qeyd edək ki, həkimlər tərəfindən dövlət və qeyri-dövlət xəstəxanalarına göndərişlərin verilməsi ilə bağlı müraciətlərə tibb müəssisələrinin rəhbərlikləri tərəfindən baxılır. Tibb müəssisəsinin rəhbərliyi tərəfindən müraciətlə bağlı verilən cavab qənaətbəxş olmazsa, vətəndaş Agentliyə müraciət edə bilər. Vətəndaş müraciətlərinin qəbulu, onların qanunvericiliyə uyğun araşdırılması və cavablandırılması Agentlik üçün prioritet məsələdir. Vətəndaş göstərilmiş tibbi xidmətlərin keyfiyyətindən narazıdırsa və ya tibb personalı tərəfindən ona qarşı hüquq pozuntusuna yol verilibsə, bununla əlaqədar ilk növbədə "Vətəndaş müraciətlərinə baxılması və vətəndaş qəbulunun təşkili haqqında" Agentliyin Əmrinə əsasən tibb müəssisəsinin vətəndaş müraciətləri ilə bağlı təyin olunmuş məsul şəxslərinə və yaxud birbaşa rəhbərliyinə müraciət etməlidir.

### "Əhali mümkün qədər çox tibbi xidmət növü ilə əhatə olunmalıdır"

**Mövzu ilə bağlı "Şərq"ə danışan Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov qeyd etdi ki, 01 aprel 2021-ci il tarixindən etibarən Bakı, Sumqayıt şəhərlərində, Abşeron rayonunda rəsmi qeydiyyatda olan şəxslər də icbari tibbi sığortanın Xidmətlər Zərfindən yararlanmağa başlayıb:**

- İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi bildirir ki, Xidmətlər Zərfində edilən dəyişikliyə əsasən, ora 300-ə yaxın tibbi xidmətin əlavə olunması planlaşdırılır. Hazırda icbari tibbi sığortanın Xidmətlər Zərfinə 2550 sayda müxtəlif tibbi xidmət daxildir. Agentlik tərəfindən Xidmətlər Zərfində dəyişikliklərin edilməsi, tibbi xidmətlərin sayının və çeşidinin artırılması ilə bağlı layihə hazırlanıb və aidiyyəti qurumlara təqdim olunub. Ümumilikdə Xidmətlər Zərfi ilə təminata alınan tibbi xidmətlərin sayının 2800-dən çox olması nəzərdə tutulur. Məqsəd əhalini daha çox sayda tibbi xidmətlə təmin etmək və xidmətlərin əlçatanlığını artırmaqdır. Mən də belə hesab edirəm ki, əhali mümkün qədər çox sayda, daha geniş tibbi xidmət növləri ilə əhatə olunmalıdır. Bu, həm həkimlər, həm də vətəndaşlar üçün əlverişli olacaq. Ümumilikdə icbari tibbi sığorta həm həkimlər, həm də əhali qrupları üçün faydalıdır. İcbari tibbi sığorta bizim regionda yerləşən bir çox dövlətlər tərəfindən uzun illərdir ki, tətbiq edilir. Məsələn, qonşu Gürcüstan 20 ildir ki, tibbi sığortadadır. Türkiyə, Rusiya da həmçinin. Bunun üçün ayrı-ayrı dövlət xəstəxanalarında tibbi baza, fundamental işləmələr lazımdır. Yəni buna nə dərəcədə tələbat var və s. Bunun hamısı nəzərə alınmalıdır. Dövlət də bunu əvvəlcədən ölçülü şəkildə hesabladı, nəticədə aprel ayından həmin sistemə keçid edildi. Bundan sonra əsas məsələ icbari tibbi sığortanın daha artıq tibbi xidmət növünü əhatə etməsinə və ondan əhalinin daha böyük hissəsinin istifadəsinə nail olmaqdır. Amma vətəndaşlarımız bilsin ki, bütün ölkə boyu, paytaxt da daxil, icbari tibbi sığorta tətbiq edilir və onlar tibb müəssisələrinə rahat bir şəkildə müraciət edə bilərlər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Pandemiya kasıbçılıq yaradıb



## Əhali depozitlərdən "yeməyə" başlayıb

"Dünya ölkələri postpandemiya dövrü üçün iqtisadi yüksəlik planları hazırlayırlar". Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Natiq Cəfərli deyib. Onun sözlərinə görə, əksər ölkələr öz inkişaf planlarında vacib bir amili - son 1 ildə əhalidə yığılmış sərbəst vəsaitləri nəzərə alıblar:

"Sərhədlərin bağlı olması, səyahətlərin sıfıra yaxınlaşması, uzun zaman kafe-restoranların çalışmaması, qeyri-ərzaq mallarına marağın azalması əhalidə ciddi maddi vəsaitlərin toplanmasına səbəb olub. Britaniya, AB ölkələri, ABŞ, Kanada, Yaponiya və digər ölkələrdə əhaliyə ciddi maddi dəstəyin olması da vəsaitlərin yığılmasında ciddi rol oynayıb.

Məsələn, Britaniya Mərkəzi Bankının məlumatına görə Birləşmiş Krallıq əhalisi son bir ildə 208 milyard dollar vəsait toplayıb. Ölkənin MB rəhbəri deyir ki, bu vəsaitin xərclənməsi ölkə iqtisadiyyatına əlavə impuls verəcək. Bu isə iqtisadiyyatın toparlanmasına xidmət edəcək, ÜDM-in artım tempi yüksələcək. AB ölkələrində, ABŞ və

"Vətəndaşlarda nəinki əlavə yığım yaranmadı, hətta bu illər ərzində "qara gün" üçün topladığı vəsaitlərin də "əriməsinə" səbəb oldu"

digər inkişaf etmiş ölkələrdə də eyni gözləntilər formalaşıb. Hətta şimal qonşumuz olan Rusiya MB-ı və hökuməti də eyni məsələyə diqqət çəkib. Son məlumata görə Rusiya vətəndaşlarında 2,7 trilyon rubl yığılıb-qalıb. Rusiyalıların səyahət sevgisini nəzərə alaraq, bu vəsaitin əsas hissəsinin məhz səyahət məhdudiyyətlərinə görə toplandığı ehtimal olunur. Rusiya hökumətinin pandemiya ilə əlaqədar əhaliyə maddi dəstəyinin həcminin böyük olması da əlavə vəsait toplanmasına səbəb olub".

Ölkəmizə gəlincə iqtisadçı bildirib ki, Azərbaycanda karantin rejimi, sərt qapanmalar, iqtisadi məsələləri nəzərə almadan verilən qərarlar, əhaliyə cüzi maddi dəstək, yüzminlərlə insanımızın köməkdən, yardımlardan kənarda qalması, biznesin çökməsi - bütün bunlar əhalinin kasıblaşmasına səbəb oldu: "Vətəndaşlarda nəinki əlavə yığım yaranmadı, hətta bu illər ərzində "qara gün" üçün topladığı vəsaitlərin də "əriməsinə" səbəb oldu. Məsələn, bu ilin aprel ayının 1-nə fiziki şəxslərin banklardakı əmanətləri cəmi depozitlərin 34,2 faizini təşkil etməklə 8 milyard 147,5 milyon manat olub. Bu illik müqayisədə 1,3 faiz, aylıq müqayisədə isə 232,4 milyon manat və ya 2,8 faiz azdır. Tək elə fevral ayına nisbətən mart ayında əhali 232 milyon 400 min manat depozitdən pul çəkib xərcləməyə məcbur qalıb. Sərhədlər bağlı, səyahət yox, ölkəyə bu ilin ilk 3 ayında keçən ilin 3 ayına nisbətən avtomobil idxalı da azalıb (pul maşın almağa da yönəlməyib), deməli əhali ərzağa, tibii ehtiyaclara, bir sözlə dolanışığa görə artıq daha sürətlə depozitlərdən "yeməyə" başlayıb. Yəni, dünya ölkələri əhalidə yığılıb-qalmış artıq pul kütləsi hesabına iqtisadi canlanma modelləri qurur. Bizdə isə əhalinin pulu nəinki artıb, tam tərsinə, əvvəl yığdıqlarını daha sürətlə gündəlik tələbata xərcləməyə başlayıblar".

**Aynurə Pənahqızı**

## Əllərini qandalladılar

### Daha bir xəstəxananın şöbə müdiri tutuldu



**Sabirabad rayonunda COVİD-19 virusuna yoluxan xəstənin qohumundan rüşvət alan şöbə müdiri saxlanılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən "Şərq"-ə verilən məlumata görə, Sabirabad rayonu, Suqovuşan kənd sakininin koronavirus infeksiyasına (COVİD-19) yoluxmaqla stasionar şəraitdə müalicəyə ehtiyacı olan qohumunun Rayon Mərkəzi Xəstəxanasının Fazil adlı həkimi tərəfindən xəstəxanaya yerləşdirilməsi müqabilində 1000 ABŞ dolları məbləğində pul alması barədə Sabirabad rayon prokurorluğuna müraciəti daxil olub. Aparılmış araşdırmalarla müəyyən edilib ki, Sabirabad Rayon Mərkəzi Xəstəxanasının İnfeksion şöbəsinin müdiri, koronavirus xəstələrinin müayinə və müalicələri üzrə koordinator həkim Əliyev Fazil Məhərrəm oğlu koronavirus infeksiyasına (COVİD-19) yoluxmuş şəxsin qohumundan qeyd edilən xəstəxanaya yerləşdirilərək müalicə olunması üçün 1000 ABŞ dolları məbləğində pul vəsaitini rüşvət qismində alıb, sonradan isə həmin xəstə müalicə olunduğu xəstəxanada vəfat edib.

*Toplanmış material üzrə fakta görə Cinayət Məcəlləsinin 311.3.2-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb, Fazil Əliyev 23 aprel 2021-ci il tarixdə həmin maddədə nəzərdə tutulan cinayət əməlini törətməkdə şübhəli şəxs qismində tutulub.*

*Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.*

**Yeganə**

# Siz də tanıyın!

## Tarixin ən məşhur fırıldaqçıları kimlərdir?

*(Əvvəli səh: 16-da)*

Sülün Osman "Amerikalı" ləqəbi ilə də tanınır. Nyu-Yorkun ən məşhur məkanlarını - Metropol Muzeyi, Azadlıq Heykəli, Bruklin Körpüsünü bir neçə dəfə "satıb". Hətta pulu çatmayanlara "hissə-hissə ödəyərsiniz" deyə fırıldaq gəlirmiş. 1928-ci ildə yaxalanıb ömürlük azadlıqdan məhrumetmə cəzası alıb, Azadlıq heykəlini "satan".

**Güney Zobu (Raki)**

Güney Zobunun dolandırdığı adamlar gizli işlər, gizli ticarət yürütdüklərindən onu polisə şikayət edə bilməyiblər. Rakinin "mərifətləri" valyuta ilə bağlı olub. O zamanlar valyutaya sahib olmaq cinayət tərkibli əməl sayılırmış. Raki də Almaniyadan, ya da Amerikadan gələn valyuta daşıyıcısı kimi özünü tanıdır, insanlarla mehmanxanalarda görüşür, onlara "valyutam var", deyərək aldadır, pullarını alırmış. Güney Zobu - Rakinin prototipi Türkiyənin yerli istehsalı olan "Tokatçı" filmindəki "Karbonat Erol"dur.

**Bankir Kastelli**

Bankir Kastelli əslində dolandırıcı olmayıb, sadəcə, yüksək faizlə sələmçilik edirmiş, lakin yaşanan olaylar onu da fırıldaqçı kimi tanıtdı. Bankir aylıq 12 faizlə sələmə pul verirmiş. Milli gəlirin 70 milyon dollar olduğu zamanda bankir Kastellinin əlində 100 milyon pul varmış. 40 bankın işçisini kənarda qoyan qərara imza atmasıyla işlər birdən tərsinə dönüb, iflas edən Kastelli isə xaricə qaçıb.

**Bankir Bako**



Bankir Bako da banklara fırıldaq gəlirmiş. 80-ci illərdə minlərlə insanın pulunu yeyib, geri qaytarmamaqla "şöhrət tapdı". Banklardan kredit alarkən imza əvəzinə çobanyastığı gülü şəkli çəkirmiş. Buna görə də adı "papatyalı bankir" çağırılırmış. Bako fırıldaqçılıq üstündə illərlə həbsdə yatdı.

**Ayşə Bənli və komandası**



Ayşə Bənli komandasıyla Las-Veqasdakı "dolandırılması mümkün deyil", deyilən qumarxanaya fırıldaq gəlib. Yaxalansa da, heç bir dəlil, sübut tapılmadığından azad edilmişdi. Daha sonra izini 2 milyon dollarlıq pulla itirdi.

**Səlcuq Parsadan**

Səlcuq Parsadan 1990-cı illərdə dövlət rəsmilərini aldatmaqla məşhurlaşıb. Təqaüddə olan general-leytenant Necdət Öztorunun adından istifadə edərək gizli büdcədən 5,5 milyon lirə ələ keçiribmiş.

**"Əyyublu" Xalid**



"Əyyublu" Xalid haqqında 3 iddia var. Birincisi, İstanbulun işğal günləri ilə əlaqəlidir. O günlərdə Xalid saxta polis məntəqəsi yaradıbmış, şəhərdəki azsaylı xalqların nümayədələrini guya "xəbərçilik" suçu ilə yaxalayır, sonra da rüşvət alıb buraxırmış. İstanbulun azadlığa qovuşması ilə Xalid itkinlər siyahısına qarışıb. İkinci iddia isə budur ki, guya Xalid İtaliya diktatoru Benito Mussolinini dolandırıb. Xalid Mussoliniyə məktub yazıb. Məktubda bildirib ki, onun ideyalarını bəyəndiyi, fikirlərini yaydığı üçün həbs ediblər. Bir neçə gün sonra İtaliyanın baş konsulu Xalidlə görüşmək üçün həbsxanaya gəlib. Həm də ona pul gətirib. Amma məsələnin məğzi ortaya çıxıb. Xalid deyib ki, pulsuz qaldığı üçün bu yalanı uydurub. Üçüncü iddia isə lap heyrətlidir. Xalid 68 qadını evlənmə vədiylə aldadıb. Pullarını, zinət əşyalarını oğurlayıb qaçıb. Xalid yaxalanıb həbsə atılıb və həyatını orada başa vurub.

**Qreqor MacQreqor**



Bu adam özü üçün xəyallar ölkəsi qurub, Amerika qitəsindəki bir ölkənin şahzadəsi olduğunu söyləyib, guya ki, orada malik olduğu zəngin mədənləri "satmışdı". Mədənlərə məxsus hissələrini ingilis sərmayədarlarına 200 min sterlinqə satıbmış.

**Frank Abaqnale**

**Frank Abaqnale özünü "PanAm" pilotu olaraq tanıdıbmış. 1960-cı illərdə saxta çeklər vasitəsilə ümumilikdə 2,5 milyon dollar əldə etmişdi.**

"PanAm" pilotu kimi 26 ölkəyə pulsuz uçuşlar gerçəkləşdirmiş, özünü həkim, hüquq müşaviri kimi tanıtmışdı. Maraqlı olan budur ki, törətdiyi əməllərə görə ABŞ-da həbsə alınan Frank Abaqnale azadlığa çıxdıqdan sonra fırıldaqçılarla mübarizə üzrə məsləhətçi kimi çalışmağa başlayıb. Onun həyatı da filmə çəkilib. Məşhur rejissor Stiven Spilberq 2002-ci ildə çəkdiyi "Bacarırsan, yaxala" filmində Frank Abaqnalenin həyatını canlandırıb.

**Çarlz Ponzi**



**Çarlz Ponzi dünya fırıldaqçıları arasında adını "qızıl hərflərlə" yazdırmış birisidir.**

1920-ci ildə qurduğu "səadət zənciri" sayəsində milyonlarla dollar qazanıb. Həbsə alınıb, amma saxta səhmləri yenə sərmayədarlara sata bilib. ABŞ hökuməti Ponzini İtaliyaya deportasiya edib. Çarlz Ponzi isə 1949-cu ildə İtaliya diktatoru Mussoliniyə müşavirlik edib.

**Hazırladı: Məlahət**

# Nazirlik əlilliyin təyin olunması təcrübəsini İsveçrədən götürüb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin müavini Cəmaləddin Quliyev deyib ki, işsizlikdən sığorta ödənişi alan vətəndaşların əhatə dairəsinin genişləndirilməsi üçün müvafiq qanunvericiliyə dəyişikliklər hazırlanıb.

O qeyd edib ki, hər ay işsizlikdən sığorta ödənişi almaq hüququna malik olan vətəndaşlar haqqında məlumat toplanılır: ”Ödəniş almaq hüququ olan vətəndaşlara özümüz müraciət edəcəyik. Bundan başqa, əgər hansısa vətəndaşın ödənişi praktiv qaydada alması mümkün olacaqsa, onlara ödənişlər praktiv şəkildə təyin ediləcək”. Sədr müavini vurğulayıb ki, hazırda proses davam edir: ”Agentliyimizin Ərazi Məşğulluq Mərkəzləri üçün təlimatlar hazırlanıb və yaxınlarda onlara göndəriləcək”.

**İqtisadçı-ekspert Rauf Qarayev ”Şərq”ə açıqlamasında qeyd edib ki, qanunda dəyişikliyə tələsmək lazım deyil:** ”Qanunvericiliyin hansı formada olduğu ilə tanış deyiləm. Amma atılan addımda bəzi nüanslar var ki, onlarla qeyd olunanlara əsasən, razılaşmamaq olar. Birinci odur ki, vətəndaşlar praktiv qaydada alması dedikdə nə nəzərdə tutulur və bu addım hansı beynəlxalq nümunəyə əsasən hazırlanıb? Bu yaxınlarda məlum oldu ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi əlilliyin təyin olunması praktikasını İsveçrədən götürüb və onu optimal hesab edib. Görünən mənzərə odur ki, bu, işlək deyil və vətəndaşların haqlı narazılığına səbəb olub”.

*“Görünən mənzərə odur ki, bu, işlək deyil və vətəndaşların haqlı narazılığına səbəb olub”*



*İqtisadçı-ekspert hesab edir ki, birinci növbədə qanunvericilikdə nəyisə dəyişməkdən əvvəl onu sınaqdan keçirmək lazımdır:* ”Məsələn, bunu pilot layihə olaraq hər hansı qərarla sınaq etmək olar. Bundan sonra effektiv olacaqsa, qanunda dəyişiklik üçün müraciət etmək lazımdır. Təəssüf olsun ki, bizdə layihə hazırlanıb birbaşa Milli Məclisə ötürülür ki, təsdiq olunsun. Onun öncə effektivlik sınağı keçirilmir. Bu baxımdan hesab edirəm ki, yuxarıda qeyd olunduğu kimi, qanunda dəyişikliyə tələsmək lazım deyil. Sınaq keçirilib bunu nümayiş etdirmək lazımdır. Yoxsa digər qanunvericilər kimi hər il bir çox dəyişikliklər edilməsi məsələsi gündəmə gələcək”.

**R.Qarayev qeyd edib ki, bu günləri Azərbaycanda işsizlik sığortası özünü tam doğrultmur:** ”Səbəb odur ki, bu sığorta işçidə elə imkan yaratmalıdır ki, onu işləmək imkanı olmadıqda belə xərcləyə bilsin. Hesab edirəm ki, həmin sığortanın özü onlayn olaraq görmək imkanına sahib olması daha məqsədəuyğun olardı. Həmçinin ehtiyac olduqda vətəndaşlar həmin vəsaiti xərcləmək mexanizmi imkanına da sahib olmalıdırlar. Çünki işçinin gedib öz pulu üçün dövlət orqanına müraciət etməsi absurd məsələdir. DSMF-də yığılan pullar belə imkan vermir ki, işçi o vəsaitdən az da olsa, ehtiyac yarandıqda xərcləsin. Hesab edirəm ki, vəsaiti əldə etmək baxımdan vətəndaşa hüquq verilməlidir”.

**Aynurə Pənahqızı**



# Qidaların son aqibəti ilə heç kim maraqlanmır

*“Hər gün tonlarla qida məhsulunun vaxtı keçir”*

Lənkəranda fəaliyyət göstərən marketdə istehlak üçün yararsız qida məhsulları aşkar edilib. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən rayonun Şürük kəndində yerləşən, Vahabov Səlim Fazil oğluna məxsus "Şürük" marketdə yoxlama keçirilib.

Yoxlama zamanı marketdə istifadə müddəti bitmiş kolbasa, yumurta və duz məhsulu aşkar edilib. Aşkar edilmiş nöqsanlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

**Baş verənləri ”Şərq”ə dəyərləndirən Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri Eyyub Hüseynov bildirib ki, ölkəmizdə təhlükəli məhsulların satılması ilə bağlı faktlar var:** ”İllər boyu murdar və xəstə heyvan ətlərinin şəhərə daşınması, restoranlar, uşaq bağçaları və s. verilməsinin qarşısını almaq istəyirik. Bu sahədə ən effektiv işi Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi görür. Lakin DİN bu sahədə qanunsuzluq edən şəxsləri həbs etsə də, məhkəmə orqanları nəyinsə naminə həmin şəxsləri azadlığa buraxırlar. AİİB olaraq belə məhkəmələri ifşa etməyə hazırıq”.

**E.Hüseynov söyləyib ki, vaxtı keçmiş qidaların satılması qanunla qadağandır:** ”Lakin soruşaq görək vaxtı keçmiş qidaların son aqibəti necə olur? Hər gün tonlarla qida məhsulunun vaxtı keçir. Dövlətin bu sahədə qanunvericiliyi mükəmməl deyil. Alqoritm belədir, dövlət orqanları və yaxud sahibkar özü bunu müəyyən edir, satışdan çıxarır və malı ona göndərən şirkətə qaytarır. Şirkət isə sanki Lomonosovun maddə kütləsinin saxlanması qanununu əsas tutur, heç bir məhsul məhv olmur, bir şəkildən digərinə çevrilir. Məsələn, məhsulun üzərindəki etiketi dəyişdirib, yenidən satışa göndərir. Ona görə də həmişə təklif etmişik ki, bu sahəyə ciddi nəzarət edən bir MMC yaradılmalı və dövlət orqanları ilə çalışmalıdır. Belə qidaları yığıb məhv etmək lazımdır.

"Heç bir məhsul məhv olmur, bir şəkildən digərinə çevrilir"

Vaxtı keçmiş qidaların müəyyən edilməsi üçün müvafiq proqram var. Həmin proqram satış şəbəkələrinə yüklənməlidir. Bu proqramla skaner vaxtı keçmiş qidaları müəyyən edir. Məlumatlar isə AQTA-nın serverinə daxil olur. Beləliklə, AQTA açanda görür ki, neçə mal vaxtı keçdiyi üçün satışa buraxılmayıb. Buyursunlar proqramı tətbiq etsinlər. AİİB təmənnasız olaraq bu işi satış şəbəkələrinə qurdurmağa hazırdır. Lakin satıcılara və bizneslə məşğul olan dövlət qurumlarına sərf etmədikləri üçün belə addım atmırlar. Ona görə də vaxtı keçmiş qidaları əhaliyə sırıyırlar. Nəticəsi isə klinikalarda növbəyə durmağımız və dərman biznesinə dəstək verməyimiz olur”.

**Yeganə Bayramova**

# Turizm sahəsini canlandırmağa ehtiyac var

Dövlət Sərhəd Xidmətinin məlumatına görə, bu ilin birinci rübündə də ölkəmizə gələn turistlərin sayında azalma davam edib. Belə ki, həmin müddətdə Azərbaycan 117,2 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 dəfə xarici vətəndaş gəlib. Səfər edənlərin çoxu əsasən qeyri-turizm məqsədilə ölkəmizə gəliblər.



## Ölkəyə səfərlərlə bağlı sərt qaydalar dəyişdirilməlidir

Rəsmi statistikaya görə, ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin yanvar-mart aylarında Gürcüstandan gələnlərin sayı 11,9 dəfə, Türkmənistandan - 8,9 dəfə, Qazaxıstandan - 7,7 dəfə, Özbəkistandan - 5,2 dəfə, Rusiya Federasiyasından - 4,1 dəfə, Ukraynadan - 3,7 dəfə, Böyük Britaniyadan - 3,6 dəfə, Belarusdan - 2,1 dəfə, Türkiyədən - 1,9 dəfə, İrandan - 1,6 dəfə azalıb.

**Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov bu barədə ”Şərq”ə açıqlama verib.** Onun sözlərinə görə, COVİD-19 pandemiyasının aktiv olduğu dövrdə ölkəmizə gələn turistlərin sayının azalması gözlənilən idi: ”Bununla belə, yeni turizm mövsümünün başlanmasına az zaman qaldığını nəzərə alsaq, ölkəyə səfərlərlə bağlı sərt qaydaların dəyişdirilməsinə ehtiyac var. Belə ki, əgər icazə verilən meyarlara uyğun gəlməyən əcnəbinin müddətli koronavirus (COVID-19) neqativ PSR-testi nəticəsi varsa da belə ölkəmizə daxil ola bilməz. Halbuki, test nəticələri neqativ olan əcnəbilərin potensial virus yayıcısı riski ciddi şəkildə aşağıdır. Buna görə də, bu şəxslərin səfərləri epidemioloji baxımdan hər hansı ciddi təhlükə yaratmır”. V.Bayramov xatırladıb ki, mövcud qaydalara əsasən, ölkəyə yalnız bizdə akkreditə olan xarici diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri, əməkdaşları və onların ailə üzvləri, valideynlərdən biri, həyat yoldaşı və ya azyaşlı övladı Azərbaycan Respublikası vətəndaşı olan əcnəbilər, ölkəmizdə işləmək, müvəqqəti və ya daimi yaşamaq icazəsi olan xaricilər və ali təhsil müəssisələrimizdə təhsil alan əcnəbi tələbələr gələ bilər.

**Aynurə Pənahqızı**

# Bəzi aparıcılar özlərini məişət səviyyəsində aparır



Televiziyalar Kütləvi İnformasiya Vasitələrindən biri, hətta ən populyarlarından olsa da, son vaxtlar imicini itirməməkdədir.

## *"Onların intiusiyası o qədər güclü olmalıdır ki, efiri idarə edə bilsinlər"*

Buna səbəb isə bu və ya digər formada tamaşaçıda ikrah hissinin yaradılmasıdır. Dil normalarının pozulmasından tutmuş efir mədəniyyətinə əməl edilməməsinədək onlarca qüsur bir çox televiziya kanallarını günü-gündən gözdən salır. Aparıcının öz həyat yoldaşını kamera qarşısında qucaqlamasını, qonaqdan avtomobilinin qiymətinin soruşulmasını, müğənnilərin "arxiv"lərinin "açılıb-tökülməsini" kimlərsə səmimiyyət adlandırır. Amma gərək leksik lüğətə yaxşı baxsınlar. Çünki bunun adı səmimiyyət deyil. Heç vaxt da olmayacaq.

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli belə biabırçılıqların necə adlandırılması gərəkdiyini "Şərq"ə açıqladı:** "Aparıcılar səmimi ola bilmirlər. Səmimilik iddiasına düşən kimi nöqsanları üzə çıxır. Aparıcı efirə çıxmazdan əvvəl özünü hazırlamalı, peşəkarlığından əmin olmalıdır. Təəssüf ki, bəziləri kameraların mövcudluğunun onlara milyonlarla gözün baxması demək olduğunu anlamırlar. Hətta kameraları hiss etmədən özlərini məişət səviyyəsində aparırlar. Beləliklə, auditoriya ilə əks-əlaqə yaranmır, kommunikasiya pozulur və müxtəlif qüsurlar üzə çıxır. Əlbəttə, bütün məsuliyyəti aparıcıların da boynuna yıxmaq olmaz. Digər ştat vahidləri, o cümlədən redaktor, rejissor, prodüsser də diqqətli olmalı, aparıcının görmədiyini görməyə çalışmalıdır. Onların intiusiyası o qədər güclü olmalıdır ki, efiri idarə edə bilsinlər".

**Q. Məhərrəmli, həmçinin problemin həlli yollarından danışdı:** "Xüsusilə əyləncə proqramlarında bayağılıq, düşük replika və epizodlar, aşağı səviyyəli nitq etiketləri müşahidə olunur. Nə qədər tədbir görülsə də, çatışmazlıqlar qalmaqdadır. Görünür, aparıcıya, proqrama verilən meyarlar yanlışdır və onlar dəyişilməlidir. Reklam bazarı, reytinqlə bağlı deyilənlər isə bəraətdir. Bunlar qeyri-peşəkarlıq və bayağılıq üçün əsas ola bilməz".

**Kənan**

## "Ölü-diri, uşaq-böyük bilmirlər"

Aybəniz Haşımova jurnalistlərə hiddətlənib



**"Qırx üç ildir ki, səhnədəyəm. Əvvəllər bir çox müsahibəm olub, hətta həyəcandan nəyisə unudub, deyə bilməmişəmsə, həmin jurnalist əlavə edərək yazıb və xalqımıza gözəl bir məqalə tədim edib.**

İndi isə tərsinədir. Dediyin sözləri baş-ayaq yazıb və ürəklərindən keçən deməдiyin bir eybəcər başlıqla hətta paylaşıb insanları gözdən salmağa çalışırlar".

**"Şərq" xəbər verir ki, bu sözləri instaqram səhifəsində Əməkdar artist Aybəniz Haşımova yazıb. O, açıqlamalarını təhrif edən jurnalistlərə irad bildirib:** "Sizcə, bu hərəkəti necə adlandırmaq olar? Bu nə biabırçılıqdı? Nə vaxtsa buna bir dur deyiləcək? Ölü-diri, uşaq-böyük bilmirlər. Yetənə yetirlər, yetməyənə bir daş atırlar. Allahın qəzəbinə gələcəklər".

**Samirə Ərəblinski**

## "Mən hər gecə ölürəm"

Mətanət Əsədova təklikdən usanıb



**Müğənni Mətanət Əsədova Günay Firudinqızına müsahibəsində həyatı ilə bağlı danışıb. Sənətçi kövrək notlara toxunaraq təklikdən gileylənib.**

"Şərq" xəbər verir ki, M.Əsədova övladının olmamasını öz səhvi kimi dəyərləndirib: "Niyə? Çünki halallıqla olsun istəyirəm, elə-belə yox. Qadınam və xoşbəxt olmaq haqqımdır. Özümü bir evin xanımı kimi görürəm. Ancaq bunu bilirəm, yoxsa boşa ömür keçirmək istəmirəm. Lakin öz həyatımı kiməsə arzulamaram. Təklik çox pisdir. Bir gün yaxınlarım evimə qonaq gəldilər, sonra getdilər. Deyir, sənin yanından qayıdandan sonra az qalıram öləm. Düşünürük ki, o yenə yalnız qaldı. Söylədim ki, mən hər gecə ölürəm. Həyatdır da, qismətimlə barışmalıyam".

**Samirə**

## Bahar Lətifqızı ayrılmayıb

Ülviyyə Namazova həmkarını yalan danışmaqda suçladı



**"Həmin Zaur" verilişinin növbəti qonaqları müğənnilər Vəfa Şərifova və Ülviyyə Namazova olub. Aparıcı Zaur Kamal bir vərəqə üç ifaçının adını yazaraq V.Şərifovaya "Bu üç nəfərdən hansılar boşanıblar?" Deyə sual ünvanlayıb.**

Müğənni öz adının da vərəqdə olduğunu bildirərək, həyat yoldaşından ayrılmadığını söyləyib.

**"Şərq"in məlumatına görə, digər iki nəfərin Bahar Lətifqızı və Şəbnəm Tovuzlu olduğu bilinib.** V.Şərifova tam açıqlamasa da, "Birinin boşanmasından əminəm, digərindən isə şübhələnirəm deyərək" cavab verib. Digər qonaq Ü.Namazova isə həmkarı ilə razılaşmayıb. O, Bahar xanımın həyat yoldaşını şəxsən tanıdığını və onların ayrılmadıqlarını xüsusi vurğulayıb. Sonda isə Zaur Kamal bunları qeyd edib:

"Bəs nə üçün belə şayiələr yayılır? Yaxınlarda da Şəbnəm xanımın boşandığını iddia etmişdilər".

**Samirə**

# Dolanışıq hər kəsə lazımdır

## *Heç kim kefindən Moskvaya toylara getmir*



"Sevil və Sevinc bacıları yaşlarına uyğun danışsınlar. Həmyerlilərimdir, xətirlərini də istəyirəm. Lakin kiminsə başqasının bağlı qapısından xəbəri yoxdur. Oradakı müğənniləri tanıyıram ki, kim haradadır. Onların pulları varsa, həmin müğənnilərə borc versinlər".

*"Şərq" xəbər verir ki, bu sözləri "MTV Azərbaycan"a Sevil və Sevinc bacılarının "Göyərti qiymətinə Moskvaya getməyə dəyməz" açıqlaması barədə danışarkən müğənni Niyam Salami deyib. İfaçı söyləyib ki, kimsə kefindən Vətənini atıb getməz:* "Məsələn, Mətanət İsgəndərli daim ailəsini, qohumlarını maddi cəhətdən təmin edib. Ona hər zaman "Ana qarışqa" demişəm. O xanımın problemləri də oldu. Ümumiyyətlə, müğənniləri hər yerdə daş-qalaq edirlər. Sanki zəif bənd kimi müğənnidən danışırlar. Ona görə ifaçılar haqqında belə fikirləşməməlidirlər. Dolanmaq hər kəsə lazımdır. Danışmağa nə var ? Hər kəs deyə bilər. Mən də eşidirəm ki, filankəs filan qiymətə Moskvada ifa edir. Yenə də deyirəm, pərdə arxasından xəbərləri yoxdursa, danışmasınlar. Yaxınlarda bir kişi müğənni açıqlama verib. Adını çəkməyəcəm. Amma sözündən belə çıxdı ki, müharibədən sonra efirlərdə qonaq olmaqla səhv etmişik. Biz oxumamalıyıq. Tək o düzgün addım atıb. Mənə də lağ edənlər çox olub. Ofisiant, barmen, aşpaz və fəhlə kimi işləmişəm. Biri deyirdi ki, gedib "pover" işləsin. Yaxud da söyləyirdilər ki, toylara getməyən müğənni sənətçi deyil."

> Kiminsə başqasının bağlı qapısından xəbəri yoxdur

**Samirə Ərəblinski**

# Pərvin ailə qurmaq istəmir

Aktrisa Pərvin Abıyeva "Onda görüşək" verilişində qonaq olarkən iddialı açıqlamalar verib. "Şərq"in məlumatına görə, o, sevgi həyatından danışıb. Pərvin deyib ki, şəxsi həyatını gizlətməyə çalışsa da, axtarıb nə isə çıxardırlar:



"İstəyərəmsə, nikahsız uşaq dünyaya gətirərəm, istəmərəmsə, yox. Kiminsə başqasının həyatına müdaxilə etməyə haqqı yoxdur"

"Hazırda sevgilim yoxdur. Belə yaxşıdır. Sevgidən başım çox ağrıyıb, bu günə qədər də ağrımağa davam edir. Mən münasibəti bitirsəm də, qarşı tərəf məndən ayrıla bilmir. Ailə də qurmaq istəmir. O söhbətlərdən sonra ailə qalar?

Ümumiyyətlə, evlənməkdən soyumuşam. Rəsmi nikahım olmadan, sevdiyim insan razıdırsa və evli deyilsə, ondan uşaq dünyaya gətirərəm. Mənim əsas şərtim evli olmamasıdır. Amma həmin insan sabah kiminləsə ailə qura bilməz. Ürəyi istəyir mənlə evlənsin, istəmirsə, evlənməsin. Təkrar edirəm, şəxsi həyatımdır. İstəyərəmsə, nikahsız uşaq dünyaya gətirərəm, istəmərəmsə, yox. Kiminsə başqasının həyatına müdaxilə etməyə haqqı yoxdur".

**P.Abıyeva "İmkanlı sevgililərinizin sizə maddi cəhətdən köməyi olubmu" sualına gəlincə bunları söyləyib:** "Yox da deyə bilmərəm, hə də. Bilirsiz, münasibətdə hər iki tərəf bir-birinə dəstək olmalıdır. Maddiyyatla bağlı ciddi problemim varsa, o insan imkanı ola-ola kömək etmirsə, bu, münasibət sayılmır. Mən qadın kimi həyatımdakı kişinin nəyəsə ehtiyacı olsa, kömək edərəm".

**Samirə**

# "Nar" məktəblilər üçün "Oxu Saatı" layihəsinə start verir




23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə "Nar" və Bakı Kitab Mərkəzinin birgə təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyilə məktəblilər üçün "Oxu saatı" layihəsinə start verilir.

Layihənin əsas məqsədi pandemiya dövründə məktəblilərin maarifləndirilməsi və mütaliə vərdişlərini inkişaf etdirərək səmərəli vaxt keçirmələrinə dəstək olmaqdır. Layihə çərçivəsində Azərbaycanın ədəbiyyat və incəsənət sahəsinin tanınmış simaları uşaqlar üçün "Zoom" platforması üzərindən müxtəlif bədii əsərlərdən parçalar səsləndirəcəklər.

"Oxu Saatı"nın ilk qonağı xalq yazıçısı Çingiz Abdullayev mütaliənin əhəmiyyətindən, gənclərin dünyagörüşünün inkişafında kitabın rolundan danışacaq, eyni zamanda sevimli kitablarını dinləyicilərlə paylaşacaq. 24 aprel saat 12:00-da baş tutacaq onlayn görüşə qoşulmaq üçün bu keçidə daxil ola, "Nar"ın rəsmi Facebookvə YouTube kanallarında yayımı canlı şəkildə izləyə bilərsiniz.

*Qeyd edək ki, 24 aprel tarixindən başlayaraq 1 ay boyunca davam edəcək "Oxu saatı"nda Çingiz Abdullayevlə yanaşı, hər həftənin şənbə günü Zülfiyyə Xanbabayeva, Nərgiz Cəlilova, Ceyhun Əli kimi qiraətçiləri də dinləmək mümkündür. Cədvəl və oxunacaq kitablar haqqında məlumat "Nar"ın rəsmi "Facebook" və "İnstagram" səhifələrində mütəmadi olaraq paylaşılacaq.*

*"Nar"ın elm və təhsilin inkişafına yönəlik sosial layihələri haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.*



# İlginc səbəbi var

## Bu ölkədə körpələr soyuq havada yatızdırılır

**Dünyada müxtəlif mədəniyyətlər və ənənələr mövcuddur. Hər ölkədəki ənənələr biri-birindən maraqlı və hətta təəccüblüdür.**

*"Şərq" "milliyet.com"a istinadən müxtəlif ölkələrin maraqlı mədəniyyət və ənənələrini diqqətə çatdırır:*

1. Kanada bazarlarında süd şüşə və ya karton qutularda deyil, torbalarda satılır.

2. Danimarka mədəniyyətində 30 yaşına çatmış olsanız və hələ də subaysınızsa, dostlarınız üstünüzə qara bibər tökürlər.

3. Birləşmiş Ərəb Əmirliklərində insanlar salamlaşarkən biri-birlərinin burnuna toxunurlar.

4. Norveçdəki valideynlər körpələrini çöldə qoyub restoranda rahat bir şəkildə yemək yeyə bilərlər. Hava soyuq olsa da, belə bir ənənəni yerinə yetirirlər. Bu, Skandinaviya ölkələrində çox yayılmış bir təcrübədir.

5. Argentinada universiteti bitirdikdə ailəniz və dostlarınız sizi yumurta, un, boya, bir sözlə, nə tapsalar atırlar.

6. İrlandiyadakı bir dostunuzun anası sizə yemək təklif edirsə, dərhal qəbul etməməlisiniz. Nə qədər ac olsanız da, 3-4 təkrar və isrardan sonra qəbul etmək daha yaxşıdır.

**Yeganə Bayramova**

# Azercell-in sürətli mobil interneti yerin üstünü də, altını da əhatə etməyə davam edir

Azercell bütün abunəçilərini daha stabil şəbəkə və daha yüksək sürətli internetlə təmin etmək məqsədilə 2021-ci il ərzində də LTE şəbəkəsini təkmilləşdirməyə davam edib. Görülən işlər sayəsində bu ilin əvvəlindən etibarən Azercell-in LTE şəbəkəsinin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişləndirilib.




## Lider operator LTE şəbəkəsini hərtərəfli genişləndirir

Təkcə ötən il ərzində Azercell-in LTE şəbəkəsinin həm əhali baxımdan, həm də ərazi baxımdan coğrafi əhatəsi təxminən 11% genişləndirilib. Təkmilləşdirmə işlərinin aparıldığı müddət ərzində isə 2021-ci ilin mart ayının sonunadək şəbəkənin əhali üzrə əhatə dairəsi 85.3%-ə, coğrafi əhatə dairəsi isə 72,8%-dək artıb.

Layihə çərçivəsində 2021-ci ilin birinci rübü ərzində 201 LTE radio baza stansiyasında təkmilləşdirmə işləri aparılıb, mövcud 50 radio baza stansiyaya LTE texnologiyası əlavə olunub. Bununla da, LTE şəbəkəsinə aid bu stansiyaların ümumi sayı 2742-yə çatdırılıb.

Azercell-in gördüyü tədbirlər çərçivəsində Bakı metropoliteninin 18 stansiyası və tunellərində LTE-Daşıyıcı Birləşdirmə sistemi aktivləşdirilib və şirkət açılışa hazır olmaq üçün tam gücü ilə çalışır.

Xatırladaq ki, ötən il də yeni nəsil texnologiyanı təmin edən şəbəkənin genişləndirilməsi istiqamətində aktiv surətdə işlər aparılıb. Belə ki, 2020-ci ildə bu texnologiya üzərindən çalışan 784 ədəd yeni radio baza stansiya quraşdırılıb. Onların müəyyən hissəsi 44 günlük Vətən Müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərdə işə salınıb. Təkcə ötən ilin sentyabr-dekabr ayları ərzində 118 yeni LTE stansiya istifadəyə verilib.

4G şəbəkəsinin təkmilləşdirilməsi, radio baza stansiyalarının sayının artırılması Azercell-in təqdim etdiyi xidmətlərin keyfiyyətinə, təqdim olunan mobil internetin sürətinə də güclü təsir göstərib. Son 1 il ərzində Azercell şəbəkəsi üzrə LTE texnologiyası ilə ötürülən data trafikin həcminə fikir versək, bu göstəricinin də 1.7 dəfə artdığını görərik. Mühüm göstəricilərdən biri də şəbəkə üzrə ötürülən ümumi data trafikin təxminən 71%-nin LTE texnologiyası üzərindən daşınmasıdır.

Hazırda Azercell-in 4G şəbəkəsi ilə 240 Mbps-ə qədər endirmə, 95 Mbps-ə qədər isə yükləmə sürəti əldə olunur. Azercell-in 4G texnologiyasından istifadə edən abunəçilər böyük həcmli videoları daha yüksək keyfiyyətdə izləmək, bu faylları daha tez yükləyib ötürmək, kəsintisiz səsli zənglər etmək və digər üstünlüklər qazanırlar.

Qeyd edək ki, LTE şəbəkəsindən istifadə etmək üçün abunəçi 4G-ni dəstəkləyən mobil telefon və USİM sim kartına malik olmalıdır. SİM kartın bu funksiyasının olub-olmadığını yoxlamaq üçün həmin nömrədən "4G" yazıb 2525-ə göndərmək kifayətdir. SİM kartın 4G-ni dəstəkləmədiyi halda Azercell-in davam etdirdiyi 4G kampaniyası çərçivəsində şirkətin istənilən satış və ya xidmət mərkəzində nömrənin 4G-ni dəstəkləyən dublikatını ödənişsiz əsaslarla əldə etmək mümkündür. Bu zaman Azercell-dən abunəçilərə birdəfəlik bonus şəklində 5 GB həcmində internet paketi hədiyyə olunur.

Hazırda LTE şəbəkəsinin sürətinə görə Azercell "Öz sinfində" ("Best in class") ən yaxşı operatorlardan biridir. Bunu dünya miqyaslı telekommunikasiya şirkəti olan Ericsson-un apardığı bençmarkinq araşdırmaları göstərib. Digər tərəfdən, Avropanın "Systemics" şirkətinin ötən il Azərbaycanda keçirdiyi müstəqil bençmarkinq testinin nəticələrinə görə, bölgələrdə LTE texnologiyası üzrə datanın ötürülmə sürəti, informasiyanın yüklənmə müddəti və video materialların daha yüksək keyfiyyətlə ötürülməsi parametrlərinə görə Azercell ölkənin digər mobil operatorlarından öndədir. Şəbəkənin real zaman rejimində monitorinqinə imkan verən RTM (real time monitoring - real zamanda izləmə) sisteminin tətbiqi isə Azercell şəbəkəsinin keyfiyyətinə nəzarət mexanizminin yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün əlavə imkanlar yaradır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**
**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**
Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41 538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**
**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 701



# Kobra - dünyanın ən hündür qülləsidir

**Küveytdə 2030-cu ilə qədər 1 kilometr hündürlüyündə göydələnin inşası planlaşdırılır.**

Kobra adlanan qüllə hazırda dünyada ən çox müzakirə edilən memarlıq layihələrindən biridir.

Əsas mübahisə doğuran məsələlərdən biri binanın hündürlüyü ilə yanaşı, həm də orada liftin necə görünəcəyi ilə bağlıdır. Mütəxəssislərin fikrincə, belə bir quruluşa malik qüllədə liftin standart forması mümkün deyil.

Layihəyə görə, lift pnevmatik boru prinsipinə əsasən sıxılmış havada işləyəcək. Kobra ən hündür olmaqla yanaşı, həm də yer üzündəki ən gözəl göydələnlərdən biri olacaq.

# Dünyada ilk yaşandı

## Nəfəs borusu nəqli əməliyyatı həyata keçirildi



**Amerikanın Nyu-York şəhərində ilk nəfəs borusu nəqli əməliyyatı həyata keçirilib.**

Əməliyyatda şiddətli astma xəstəsi olan Sonia Sein adlı qadına havanı ağızdan ağciyərlərə daşıyan yeni bir nəfəs borusu verilib. Həkimlər 56 yaşlı xəstənin astmaya görə nəfəs borusuna zərər gəldiyini deyiblər. Mütəxəssislər bu əməliyyatın ABŞ-da ilk olduğunu, hələ uğurlu olub-olmaması ilə bağlı nəsə deməyin erkən olduğunu vurğulayıblar. (medicina.az)

*Qeyd edək ki, 18 saatlıq əməliyyatda 50-dən çox tibb işçisi iştirak edib.*

# Restoranda robotlar ofisiant xidməti göstərir

## Onlar sifarişləri qəbul edərək mətbəxə ötürür



**Səudiyyə Ərəbistanında texnoloji tərəqqinin daha bir nümunəsi tətbiq edilib.**

Cəzan şəhərindəki restoranın müştərilərinə süni intellekt imkanları ilə təchiz edilmiş robot-ofisiantlar xidmət göstərir. COVID-19 pandemiyası şəraitində sosial məsafəni də qoruyan proqram yüklənmiş robot-ofisiantlar restoranın müştərilərinə bununla bağlı, habelə qoruyucu maska taxmaq zərurəti barədə xəbərdarlıq da edirlər. Onlar sifarişləri qəbul edərək mətbəxə ötürür və yeməklərin hazır olacağı vaxtı çatdırır. (azərtac) Sistemin yaradıcısı olan mühəndis Riham Ömər bildirib ki, bütün bu əməliyyatları yerinə yetirmək məqsədilə restoranın interyerində quraşdırılan sensorlar robotlara doğru istiqamətdə hərəkət etmək və yeməkləri müştəriyə çatdırmaq imkanı verir. Onun sözlərinə görə, ötürülən siqnallar sayəsində robot-ofisiantlar yaxınlıqdakı insanları hiss edir və uyğun hərəkət marşrutunu müəyyən edirlər. Eyni zamanda, robotların yaddaşına restoranın interyerinin xəritəsi və hər bir masanın yeri də köçürülüb. Müştəri sifarişi qəbul etdikdən sonra robot-ofisianta getməsi komandasını verir.



# Siz də tanıyın!

## *Tarixin ən məşhur fırıldaqçıları kimlərdir?*



**Dünya ən müxtəlif insanların həyat hekayələri ilə doludur.**

Alın təriylə pul qazanmaq, halal zəhmətlə varlanmaq istəyənlər də var, asan yolla, başqalarına fırıldaq gələrək, aldadaraq varlanmağa çalışanlar və buna nail olanlar da var. Tarixin ən böyük, məşhur fırıldaqçıları kimlərdir?

**Sülün Osman**

Türkiyədə fırıldaqçı deyiləndə, ağla gələn ilk isim Sülün Osmandır. Bu adam hətta film qəhrəmanı da olub. Adı dillərdə dolaşıb. Sülün Osman, xüsusilə Anadoludan şəhərə gəlmiş saf, qəlbi təmiz, məkr, yalan bilməyən insanlara fırıldaq gəlirmiş. Bu adam Qalata qülləsini və Bəyazit meydanını insanlara "satmışdı". Sülün Osmanın İstanbula yeni ayaq basanlardan şəhər meydanındakı saata baxmaq üçün pul aldığı da danışılırdı.

*(Davamı səh: 12-də)*

**Hazırladı: Məlahət**

# Türk professor insanlara səsləndi

## Siqaret çəkənlər koronavirus xəstəliyini 32 dəfə daha ağır keçirir



**Ziyanlı vərdişləriniz varsa, koronavirusu dəfələrlə ağır keçirə bilərsiniz. Türkiyəli professor Mehmet Ceylan "Kanal D"dəki "Nələr olur həyatda..." proqramının canlı yayımına qoşularaq vacib məsləhətlər verib.**

Professor qeyd edib ki, koronavirus ürək-damar xəstəliklərinə mənfi təsirini göstərir. Koronavirusa yaxalanan ürək-damar problemi olan birisidirsə, damarda qan laxtası təhlükəsi artır. Üərk-damar xəstəlikləri olanlar bu məsələdə diqqətli olmalıdır. Professor siqaret çəkənlərin "siqaret koronavirusa yoluxmanın qarşısını alır, virusun ağ ciyərlərdə yerləşməsinə mane olur" kimi özünü aldatmalara da cavab verib: "Tütün məhsullarından istifadə edənlər bu xəstəliyi 32 dəfə daha ağır keçirir. Tütün koronavirus üçün böyük riskdir" deyib. Həmçinin həkim virusa yoluxub sağalanların orqanizmdə yarana bilən anticisimlərə çox da güvənməməli olduqlarını deyib. Bəzi insanlar anticisim testi üçün müraciət edir, bu isə tibb müəssisələrinin yükünü artırır. Professor virusun şəkil dəyişdirməsinə diqqət çəkərək "uşaqlar arasında yoluxma sayı artır. Virusa yoluxan uşaqlarda qarın ağrısı, dəri qopması varsa, mütləq həkimə müraciət edilməlidir" söyləyib.

**Məlahət**



# Nişanlısından ayrılıb

## Cennifer keçmiş ərinə dəstək olub

**Bir neçə gün əvvəl idmançı nişanlısı Aleks Rodriqezdən ayrılan müğənni Cennifer Lopezə keçmiş əri Mark Entoni dəstək olub.**

Məlumata əsasən, Cenniferin əvvəldən Markla münasibətləri yaxşı olub. O, sənətçi ilə tez-tez əlaqə saxladığını və vəziyyətinin yaxşı olduğunu bildirib. Cennifer hazırda Dominikan Respublikasında film çəkilişində iştirak edir.

*Lopezlə Mark 10 il evli olublar. Onların 12 yaşlı Maksimillian və Emma adlı iki əkiz övladları var. Uşaqlar atalarından ayrı yaşasalar da, onlar tez-tez görüşürdülər.*